

**Stefano Luçidi: "Azərbaycanın yürütdüyü siyasət bölgəyə daimi sabitlik və sülh gətirəcək"** 7

# Xalqımızın indiki və gələcək nəsilləri şəhidlərimizlə həmişə fəxr edəcək!



"Bu gün bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bizim şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq" 2

Səs
№ 195 (6395) 26 oktyabr 2021-ci il. Qiymətı 40 qəpik



# Ərdoğanın səfərinin pərdəarxası məqamları

Qardaş Türkiyənin və Azərbaycanın hər zaman bir-birinin yanında olduğu dəfələrlə öz təsdiqini tapıb və bu gün də bütün dünyaya qardaşlıq nümunəsi göstərildiyi günün reallığıdır. Belə qardaşlıq nümunələrinin bütün dünya ötən əsrin əvvəllərində, erməni vandallarının bütün Azərbaycan... 5




## İstanbulda Türkiyə-Azərbaycan Ortaq Media Platformasının ilk iclası keçirilib 4



## "Azərbaycan Prezidentinin apardığı uğurlu siyasət gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində mühüm rol oynayıb" 4

# Paşinyan:



## "Cənubi Qafqaz regionunda düşmənçilik atmosferini aradan qaldırmalıyıq"

Cənubi Qafqaz regionunda iqtisadi və nəqliyyat infrastrukturunun açılması Ermənistan iqtisadiyyatının məzmun və keyfiyyət baxımından inkişafına müsbət təsir göstərəcək. AZƏRTAC xəbər verir ki, bunu Ermənistan baş naziri Nikol Paşinyan ölkə parlamentindəki çıxışı zamanı söyləyib. Onun sözlərinə görə, bölgədə sabitlik və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi vacibdir. Bu, təkcə... 7

## "Türkiyə Azərbaycanın bütün vəziyyətlərində yanında oldu"

"Bildiyimiz kimi 44 günlük Vətən müharibəsi dövründə Türkiyə hər zaman Azərbaycana yaxından siyasi, mənəvi dəstək nümayiş etdirdi. Ümumiyyətlə Ermənistan tərəfindən torpaqlarımızın işğal altında saxlanıldığı 30 ilə yaxın müddətdə Türkiyə hər zaman haqlı mövqeyini... 5




# Ronaldodan sərt açıqlama: Artıq vaxt gəldi! 16

# Koronavirusla vidalaşmağın ən optimal yolu - vaksinasiya 11





## "Ermənilər dərk ediblər ki, ərazi bütövlüyümüzü tanımaqdan başqa yolları yoxdur" 11

"Azərbaycan və Ermənistan liderlərinin noyabrın ilk ongünlüyündə keçiriləcək görüşü barədə Kremlə yaxın informasiya agentliyi...



## Vətəni, milləti satan radikallar hansı üzlə ədalətdən dəm vururlar? 14

Deyir, satqın üçün hər şey - satılıq maldır. Xüsusilə də, 28 ildir ki, "müxalifətçiyəm",-deyib duran, satqınlıq "emblemi" olan, ölkəmizin...

# Xalqımızın indiki və gələcək nəsilləri şəhidlərimizlə həmişə fəxr edəcək!



"Bu gün bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bizim şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq"

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 25-də Qubadlı rayonunda səfərdə olublar. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı və birinci xanım Xudafərin-Qubadlı-Laçın avtomobil yolunun 10-cu kilometrliyindən Qubadlı şəhər mərkəzinə gedən Xanlıq-Qubadlı yolunun təməlqoyma mərasimində, ”Azərenerji” ASC-nin sistem əhəmiyyətli 110/35/10 kV-luq ”Qubadlı” yarımstansiyasının, Dövlət Sərhəd Xidmətinin yeni hərbi hissə kompleksinin açılışlarında iştirak ediblər.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüblər.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Qubadlı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə bildirib ki, bu gün Qubadlı rayonunun tarixində əlamətdar və tarixi bir gündür. Düz bir il bundan əvvəl müzəffər Azərbaycan Ordusu Qubadlını erməni işğalından azad etdi və bundan sonra 25 oktyabr bizim tariximizdə əbədi Zəfər günü kimi qeyd ediləcək. Bu münasibətlə bütün qubadlılıları və Azərbaycan xalqını ürəkdən təbrik edən dövlətimizin başçısı Qubadlının azad olunmasının müharibənin gedişindəki önəmindən danışıb.

”Bu gün bu şanlı Qələbədən danışarkən, ilk növbədə, əziz şəhidlərimizin xatirəsini yad etməliyik. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bizim şəhidlərimiz bizim qəlbimizdə əbədi yaşayacaq.”

Azərbaycan xalqının indiki və gələcək nəsillərinin şəhidlərimizlə həmişə fəxr edəcəyini vurğulayan dövlətimizin başçısı Vətən müharibəsində şəhid olmuş Qubadlı sakini, Milli Qəhrəman Şükür Həmidovu bütün hərbçilərimiz, gənc nəsil üçün nümunə adlandırıb. Qubadlı azad olunandan sonra Laçın istiqamətində yolumuz açıldı və bir neçə gündən sonra biz Laçının cənub hissəsində yerləşən kəndləri də azad etdik və beləliklə, Laçın dəhlizini nəzarətə götürdük və artıq müharibənin taleyi həll edilmişdi. Artıq həm bütün dünya, həm də düşmən gördü ki, bizim qabağımızda heç bir qüvvə dayana bilməz.

Dövlətimizin başçısı qeyd edib ki, Qubadlıdan sonra biz öz zəfər yürüşümüzü, zəfər missiyamızı şərəflə davam etdirdik və noyabrın 8-də Şuşada dövlət bayrağını ucaltdıq.

Hər bir yaşayış məntəqəsinin azad edilməsi tarixi hadisədir. İlk gündən başlayaraq müharibənin son gününə qədər Azərbaycan Silahlı Qüvvələri ancaq irəli gedirdi. Birinci gündə 4 kəndin azad edilməsi Azərbaycan xalqına çox böyük sevinc bəxş etdi.

”Uzun illərdən sonra bu Qələbə sevincini biz hamımız yaşadıq”, - deyən dövlətimizin başçısı vurğulayıb ki, o vaxt heç kim deyə bilməzdi müharibə nə qədər davam edəcək, çünki bizim planlarımız işğalda olan bütün torpaqları azad etmək idi.









# “Biz bu müharibədə təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, həm də erməni faşizmini məhv etmişik”



44 günlük Vətən müharibəsi Azərbaycanın qüdrətini bütün dünyaya göstərdi. Şanlı Azərbaycan ordusu təcavüzkar Ermənistanın işğal etdiyi torpaqları cəmi 44 gün ərzində işğaldan azad etdi. Bu tarixi qələbə, həmçinin, Cənubi Qafqazda yeni siyasi reallıq formalaşdırdı. Məhz Azərbaycanın uğurlu diplomatik siyasəti və torpaqlarımızın azadlığı uğrunda apardığı mübarizə Cənubi Qafqazı əvvəlkindən daha təhlükəsiz regiona çevirmişdi. Müharibənin davam etdiyi 44 gün ərzində beynəlxalq hüquq hər zaman haqlı olan tərəfdə, yəni Azərbaycanın yanında olmuşdur. Xüsusilə, iri dövlətlərin bizi dəstəkləməsi, həmçinin Ermənistanın himayədarı kimi çıxış edən bəzi dövlətlərin Azərbaycana göstərdiyi ədalətsiz təzyiqlərin uğursuz olmasının bir neçə səbəbi var idi. Buna nail olmaq üçün Azərbaycan çox uzun və çətin bir yol qət etmişdi. Başda dövlət başçısı cənab prezident İlham Əliyev olmaqla, Azərbaycanın hökumət nümayəndələri və diplomatları hər zaman siyasi arenalarda beynəlxalq ictimaiyyəti Ermənistanı münaqişənin təcavüzkar tərəfi olduğuna və onun region üçün böyük təhdid olduğuna inandıra bilmişdi. Eyni zamanda, informasiya müharibəsinin düzgün təşkilidə əsas və həlledici amillərdən biri idi. Müharibə dövründə dövlət başçısı müxtəlif ölkələrdən olan media nümayəndələrinə və mətbuat orqanlarına müsahibələr vermişdi. Prezident İlham Əliyev müsahibələrində dəfələrlə Azərbaycanın öz torpaqlarında vuruşduğunu, bizim işimizin haqq işi olduğunu və tezliklə ərazi bütövlüyümüzü bərpa edəcəyimizi bildirmişdir. Xüsusi olaraq qeyd etmək lazımdır ki, artıq dünyada ”güclüsənsə, haqlısan” məntiqi hökm sürür. Buna əsasən əminliklə deyə bilərik ki, Azərbaycanın son dövrlərdəki sürətli sosial-iqtisadi və siyasi inkişafı, güclü ordu təchizatı dünya ölkələrini ədalətsiz mövqe göstərməkdən çəkindirmiş və bizi dəstəkləməyə məcbur etmişdir.

## Azərbaycanın daxili və xarici siyasətdə qazandığı bütün uğurların kökündə xalq-iqtidar birliyi dayanır

Bəli, İkinci Vətən müharibəsində qazanılan qələbə bir faktı da sübut etdi ki, ümumilli lider Heydər Əliyevin davam etdirdiyi xalq-iqtidar birliyi Prezident İlham Əliyev davam etdirməkdədir. Çünki Azərbaycan münaqişə başladığı gündən problemin sülh yolu ilə həllinə çalışırdı. Lakin BMT, ATƏT və s. kimi bir sıra beynəlxalq təşkilatların dırnaqarası sülh yaratmaq cəhdləri mənasız xarakter daşımışdır. Xüsusilə də, ATƏT-in Minsk qrupunun işğalçı ölkənin qanunsuz fəaliyyəti ilə bağlı qəti addımlar ata bilməməsi bu qurumun lazımsız olduğunu dəfələrlə nümayiş etdirdi. Belə ki, 2020-ci il iyulun 12-də düşmən ölkənin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə-Tovuz istiqamətində əvvəlcədən planlaşdırılmış hücum cəhdindən keçən 3 ay ərzində susan ATƏT-in Minsk qrupu birdən-birə Dağlıq Qarabağ münaqişəsinə diqqət ayırmağa başlamışdır. Lakin 44 günlük müharibə BMT-nin bu sənədlərin lazımsız kağızdan başqa heç bir rol oynamadığını açıq-aşkar göstərirdi. Bir sözlə bugünkü reallıq sübut etdi ki, Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək üçün heç bir dövlətin və yaxud da beynəlxalq qurumun köməyinə ehtiyacı yoxdur, çünki bizim kifayət qədər güclü ordumuz, cəsur əsgər və zabitlərimiz var. Məhz bunun nəticəsidir ki, Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan ordusu Ermənistan ordusunun məğlubedilməzliyi barədə illərdir formalaşdırılmış əfsanəni cəmi 44 gün ərzində məhv etdi. Bu zəfərli qələbə bütün beynəlxalq qurumları və xarici qüvvələri Azərbaycan xalqının iradəsi ilə hesablaşmağa məcbur etdi. Çünki Azərbaycanın ərazi bütövlüyü bərpa edildi və sübut olundu ki, Qarabağla bağlı heç bir qurum və ya heç bir dövlət Azərbaycanın razılığı olmadan qərar qəbul edə bilməz!!!

Bir sözlə, Azərbaycanın daxili və xarici siyasətdə qazandığı bütün uğurların kökündə xalq-iqtidar birliyi dayanır.





## “Erməni faşizmi bütün ölkələrdə olmuş faşizmlərin ən eybəcəridir, ən qəddar faşizmdir”

”Erməni faşizmi məhv edilib”,-deyən Prezident İlham Əliyev görüşlərdə dəfələrlə vurğulayıb ki, müharibə başa çatan kimi bütün işlərə start verilib: ”Çox böyük həcmli bir işdir. Çünki mən demişəm, bir daha demək istəyirəm, azad edilmiş torpaqların ərazisi 4 Lüksemburqa bərabərdir. Yəni hesab edirəm ki, bu, təsəvvür üçün, kifayət qədər aydın mənzərədir. Dörd Lüksemburq boyda ərazini biz sıfırdan tikməliyik, qurmalıyıq. Çünki mənfur düşmən torpaqlarda hər şeyi, bütün binaları dağıdıb. İndi bunu bütün xarici qonaqlar da görürlər. Öz gözləri ilə erməni vəhşiliyini görürlər. Bu, misli görünməmiş vəhşilikdir. Dünya tarixində bir çox müharibələr olub. Ancaq bu qədər qəddarlıq, bu qədər düşmənçilik, məncə, dünya müharibə tarixində olmayıb”.

”Biz hərbçilərimizlə haqlı olaraq fəxr edirik və fəxr edəcəyik. Onlar əsl qəhrəmandırlar. Biz bütün xalqımızla fəxr edirik. Çünki bu 44 gün ərzində göstərilən həmrəylik, göstərilən birlik bütün dünyaya Azərbaycan xalqını çox ləyaqətli və böyük xalq kimi təqdim etdi. Bizim Qələbəmizin rəmzi olan yumruq təkcə güc rəmzi deyil, bu, birlik rəmzidir”. Bu fikirləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Cəbrayılda rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə səsləndirib. Dövlət başçısı bildirb ki, biz birləşdik və istədiyimizə nail olduq, tarixi ədaləti bərpa etdik: ”Baxın, görün, Ermənistan indi hansı bəyanatlar verir? Otuz il ərzində uydurulan mifologiyadan əsər-əlamət yoxdur. Bəs, haradadır bunların müzəffər ordusu? Haradadır yenilməz erməni əsgəri? Bizə qarşı otuz il ərzində çirkin təbliğat aparan, Azərbaycan xalqının ləyaqətini alçaltmağa çalışan artıq öz payını aldı, öz dərsini aldı”.

Dövlətimizin başçısı deyib ki, Ermənistan ordusu yoxdur. Biz onu məhv etmişik, belə dibdən-kökdən məhv etmişik: ”Onların otuz il ərzində yığdıqları bütün texnikanı darmadağın etmişik. Onun bir hissəsi Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Canlı qüvvəsini məhv etmişik. Bunu Azərbaycan xalqı edib və öz üstünlüyünü göstərib”.

## “Dəmir yumruq”: Xalqın birlik, güc rəmzi

Bir sözlə, ”Dəmir yumruq” birliyi ilə haqq və ədaləti bərpa etmiş Azərbaycan xalqının birlik, güc rəmzi ilə böyük qələbə, zəfər tarixini yazdı. Azərbaycan dövlətinin qüdrəti, Müzəffər Ali Baş Komandanın dəmir yumruğunun ətrafında birləşməsi ilə bütün dünyaya gücünü göstərdi, sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsi şanlı Azərbaycan Ordusunun Tarixi Zəfəri ilə başa çatdı və 30 ilə yaxın davam edən işğala həmişəlik son qoyuldu. Güclü Silahlı Qüvvələrimizin əsgər və zabitləri, hərbçiləri Vətənimizin ərazi bütövlüyü naminə bir yumruq kimi birləşib, qəhrəmancasına vuruşaraq Azərbaycan Ordusunun gücünü, qüdrətini bütün dünyaya bir daha nümayiş etdirdilər. Prezidentimizin çıxışlarında, müsahibələrində, xalqa müraciətlərində dediyi kimi: ”Bu yumruq elə-belə yumruq deyil, bu, dəmir yumruqdur. Bu dəmir yumruqla düşmənin başını əzirik və əzəcəyik! Eyni zamanda, bu yumruq birliyimizin rəmzidir. Bax, bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq”.

**RƏFİQƏ KAMALQIZI**

# İstanbulda Türkiyə-Azərbaycan Ortaq Media Platformasının ilk iclası keçirilib






**Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (Türk Şurası) mediaforumu çərçivəsində Türkiyə-Azərbaycan Ortaq Media Platformasının ilk iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altunun rəhbərliyi ilə keçirilən görüşdə iki qardaş ölkənin media və kommunikasiya sahələri üzrə rəsmi şəxslərindən ibarət nümayəndə heyətləri iştirak ediblər.

"Bir millət, iki dövlət" şüarı ilə keçirilən iclasda iki qardaş ölkənin kommunikasiya sahəsində əlaqələrinin yaxşılaşdırılması məqsədilə ənənəvi və rəqəmsal media, strateji kommunikasiya, eləcə də ictimai diplomatiya sahələrində əməkdaşlıq və koordinasiyanın gücləndirilməsi, dezinformasiyaya qarşı birgə mübarizə kimi məsələlər müzakirə olunub. Türkiyə-Azərbaycan Ortaq Media Platformasının strukturu ilə bağlı məsələlərin də müzakirə edildiyi tədbirdə "ictimai diplomatiya", "beynəlxalq media", "strateji kommunikasiya", "təhsil", "qanunvericilik və tənzimləmə", "rəqəmsallaşma və beynəlmiləlləşmə" komitələrinin yaradılması ilə bağlı qərar qəbul edilib.

İclasda çıxış edən Fahrettin Altun bildirib ki, 2020-ci il dekabrın 10-da prezidentlər Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin iştirakı ilə imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında media sahəsində strateji əməkdaşlıq haqqında Anlaşma Memorandumu" ilə rəsmiləşdirilən Ortaq Media Platforması iki ölkə arasında son illər daha da inkişaf edən əlaqələrin media və rabitə sahələrində də tətbiqində çox dəyərli bir addım oldu.

F.Altun qeyd edib ki, Qarabağın işğaldan azad edilməsi zamanı kommunikasiya və media sahələrində də sıx əməkdaşlıq əhəmiyyətli rol oynadı. Media, kommunikasiya, xalq diplomatiyası, həmçinin dezinformasiya ilə mübarizə istiqamətləri Türkiyə-Azərbaycan əməkdaşlığında önəmli yer tutur. Ortaq Media Platforması Türkiyə və Azərbaycan mediasının qarşılıqlı əlaqəli şəkildə fəaliyyət göstərməsi, iki ölkə ictimaiyyətinin effektiv şəkildə məlumatlandırılması, qarayaxma kampaniyaları ilə mübarizədə ortaq strategiyaların hazırlanması baxımından böyük bir addımdır.

Azərbaycanın Vətən müharibəsi zamanı iki qardaş ölkə arasında kommunikasiya sahəsində formalaşan əməkdaşlıqdan bəhs edən Hikmət Hacıyev bu əlaqələrin Birgə Media Platforması vasitəsilə rəsmiləşdirildiyini diqqətə çatdırıb. Media və komunikasiya sahələrində nümayiş etdirilən həmrəyliyin qısa zaman ərzində uğurlu nəticələr verdiyini söyləyən Prezidentin köməkçisi deyib: "Bu gün liderlərimizin səyləri nəticəsində ən yüksək səviyyəyə çatan Azərbaycan-Türkiyə münasibətlərini qorumaq, daha da inkişaf etdirmək və gələcək nəsillərin yüz illər sonra da davam etdirməsini təmin etmək bizim tarixi borcumuzdur".

Hikmət Hacıyev sosial və beynəlxalq media platformalarında Azərbaycana qarşı aparılan dezinformasiyaya qarşı mübarizədə Türkiyənin təcrübəsindən istifadə ediləcəyini də vurğulayıb.



# İstanbulda keçirilən mediaforumda türkdilli dövlətlərin media nümayəndələrinin görüşü olub

Türk Şurasının İstanbulda keçirilən mediaforumu çərçivəsində türkdilli dövlətlərin media qurumlarının rəhbər və təmsilçiləri, habelə sosial media mütəxəssisləri arasında görüş olub. Görüşdə Türk Şurasına üzv ölkələri arasında media sahəsində əlaqələrin mövcud problemləri və onların həlli yolları müzakirə edilib. Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan və Özbəkistandan olan gənclər arasında vahid sosial media platformasının təşkil olunması, media qurumları arasında texniki mütənasibliyin təmin edilməsi və digər mövzularda fikir mübadiləsi aparılıb.

Görüşdə Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov, Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədri Rövşən Məmmədov, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev və digər türkdilli dövlətlərdən olan media nümayəndələri, eləcə də gənc jurnalistlər iştirak ediblər.

Toplantıda çıxışı zamanı Rövşən Məmmədov yaxın perspektivli addım kimi, türk dövlətlərindən olan gənc jurnalistlərin ortaq süjetlər hazırlayaraq hər birinin təmsil etdiyi media qurumunda yayımlanmasının mümkünlüyünü qeyd edib. Əhməd İsmayılov isə türkdilli dövlətlərdə fəaliyyət göstərən gənc jurnalistlərin qarşılıqlı mübadiləsinin, keyfiyyətli təcrübə proqramlarının tətbiqinin qardaş ölkələrin gəncləri və həmkarlarımız arasında kommunikasiyanın gücləndirilməsinə töhfə verə biləcəyini vurğulayıb.

# Misir portalı Prezident İlham Əliyevin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışında iştirak etməsi barədə xəbər yayımlayıb

**Misir portalı Azərbaycan Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin açılışında iştirak etməsi barədə xəbər yayımlayıb.**




AZƏRTAC-a istinadla yayımlanan xəbərdə qeyd olunub ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən dövlət siyasətində sosial sahənin inkişafına və həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını da qeyd etmək olar. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi əlilliyi olan şəxslərin, o cümlədən müharibə əlillərinin, şəhid ailələri üzvlərinin, habelə sosial cəhətdən həssas qrupların yaradıcı potensialının, istedadlarının, digər bacarıqlarının ortaya çıxarılmasına və inkişafına kömək etməkdir.

Xəbərin sonunda diqqətə çatdırılıb ki, bu mərkəzdə əlilliyi olan şəxslərə milli və Avropa kulinariyası üzrə 15 yaşdan yuxarı 5 nəfərlik qrup üçün təlim, həmçinin kulinariya yarmarkalarının keçirilməsi, kulinariya verilişlərinin çəkilməsi nəzərdə tutulur.

# "Azərbaycan Prezidentinin apardığı uğurlu siyasət gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində mühüm rol oynayıb"



Hər bir xalqın taleyüklü məsələlərinin həllində həmrəylik, xalqla dövlətin birliyi mühüm əhəmiyyət kəsb edir. Biz 2020-ci ilin sonlarında Azərbaycanın 44 günlük Vətən müharibəsi dövründə bunun bir daha şahidi olduq. Azərbaycanda 44 günlük Vətən müharibəsi dövründə xalqın həmrəyliyi çox güclü idi.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Gürcüstanın Suxumi Dövlət Universitetinin professoru tarixçi Quram Marxuliya söyləyib. Onun sözlərinə görə, Azərbaycanda gənc nəsil əsl vətənpərvərlik ruhunda yetişir. Azərbaycan Prezidentinin apardığı uğurlu daxili və xarici siyasət gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində də özünü göstərib. Məhz bu siyasət nəticəsində Azərbaycan işğal altındakı ərazilərini qısa müddətdə azad etdi. Bu, çox böyük qələbədir. Tarixçi alim hesab edir ki, Azərbaycanın 44 günlük Vətən müharibəsindəki Qələbəsi bölgəyə sülh, əmin-amanlıq və inkişaf gətirib.

"Region ölkələri sabitlik və firavanlığa nail olmaq üçün əməkdaşlığı daha da gücləndirməlidir", - deyə Q.Marxuliya vurğulayıb.



# Ərdoğanın səfərinin pərdəarxası məqamları

Qardaş Türkiyənin və Azərbaycanın hər zaman bir-birinin yanında olduğu dəfələrlə öz təsdiqini tapıb və bu gün də bütün dünyaya qardaşlıq nümunəsi göstərildiyi günün reallığıdır. Belə qardaşlıq nümunələrinin bütün dünya ötən əsrin əvvəllərində, erməni vandallarının bütün Azərbaycan ərazisindən qovulduğu zaman da şahidi olmuşdu, son zamanlar Türkənin mənəvi dəstəyi fonunda da şahidi oldu. İstər işğal dövründə diplomatik müstəvidə dəstək olsun, istər 44 günlük müharibə dönəmində Türkiyənin Azərbaycana mənəvi dəstək nümayiş etdirməsi, ölkəmizin haqq işi uğrunda mübarizəsinin müdafiə edilməsi olsun, istərsə də müharibə bitdikdən sonra ölkəmizin mövqeyinin müdafiəsi olsun, bütün istiqamətlərdə Türkiyə və Azərbaycan hər zaman qardaş olduğunu, bir millət iki dövlət prinsipinə saldiq qaldığını isbat edib və etməkdədir.

Bir zamanlar, daha dəqiq desək, işğal dövründə Türkiyənin iştirak etmədiyi beynəlxalq tədbirdə cənab Prezident İlham Əliyevin Türkiyəni müdafiə etdiyi də yaddaşlara yazılıb, qardaş ölkənin rəhbəri cənab Rəcəb Tayyib Ərdoğanın da hər çıxışında Azərbaycanın haqq işini dəstəklədiyi də unudulan deyil. Eyni zamanda torpaqlarımızın işğaldan azad olunması, tarixi ədalətin bərpası uğrunda gedən 44 günlük savaş dönəmində də bütün dünya ictimaiyyəti cənab Ərdoğanın ölkəmizi dəstəklədiyi barədə mesajlar da tarixə yazılıb və bu mesajlar bir çox mətləblərdən xəbər verir. Əvvəla, qardaş ölkənin dövlət başçısı Türkiyənin hər zaman Azərbaycanın yanında olduğunu və olacağını bəyan edib, digər tərəfdən də ölkəmizə qarşı bundan sonra hərhansı bir haqsızlığın olacağı təqdirdə bunun da cavabsız qalmayacağı barədə xəbərdarlıq edilib, hansıki bu çox önəmlidir.

Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə birgə Füzuli Beynəlxalq Hava Limanının açılışında iştirak edəcəyi, orada salınımış yeni infrastrukturla tanış olacağı, bununla yanaşı İranla sərhəddə minalardan təmizlənmiş ərazilərdə salınan əkin sahələrini gəzəcəyi barədə "Haber Global"ın baş yayın direktoru Tuba Atavın Azərbaycan səfərinin proqramı ilə bağlı sualını cavablandırarkən deyib. Bir sözlə, Türkiyənin dövlət başçısının Azərbaycana səfəri gözlənilir və bu görüş məhz Füzuli Hava Limanın açılışı ilə eyni vaxtda olacaq. Deməli, Türkiyə Prezidenti bununla da Azərbaycanın bütün layihələrini dəstəklədiyini diqqətə çatdırır.

Bütün dünya ictimaiyyətinin diqqətinə çatdırılır ki, Azərbaycanın təkcə iqtisadi deyil, hava limanı da daxil olmaqla, hər sahədə layihələri Türkiyə tərəfindən dəstəklənir. Bu da öz növbəsində Azərbaycanın əleyhində olan qüvvələr üçün ciddi bir mesajdır və bununla hər biri öz hesabını götürmüş olur.

Türkiyənin dövlət başçısının eləcə də İranla sərhəddə, minalardan təmizlənmiş ərazilərdə salınan əkin sahələrini gəzəcəyinin onun səfərinin proqramına daxil edilməsi də təsadüfi deyil. Bu, heç şübhəsiz ki, məhz son zamanlar Azərbaycanla münasibətdə yanlış davranışlar nümayiş etdirən İrana da bir mesajdır və bu mesajın mahiyyəti zənnimizcə artıq bəllidir. Bəllidir ki, qardaş ölkənin dövlət başçısı həmin ərazilərdə, İranla sərhəd olan ərazilərdə cərəyan edən proseslərə də biganə qalınmayacağını bəyan edir və bu, təkcə İrana deyil, onun havadarlıq etdiyi Ermənistana da böyük bir mesajdır. Yəni, bu həm də o deməkdir ki, Ermənistan heç də İrana güvənib yanlışlıqlara yol verə biləcəyini ağlının ucundan belə keçirə bilməz və bölgədə Azərbaycanın yaratdığı mövcud reallıqları hər kəs qəbul etməlidir, bu reallıqları dəyişməyi mümkünsüzdür.

Cənab Ərdoğanın Naxçıvanla Azərbaycanın digər ərazilərini birləşdirəcək Zəngəzur dəhlizi barədə, bu dəhlizin açıqlamsı istiqamətində işlərin davam etdiyi haqda fikir bildirməsi də, İranla Azərbaycan arasında yaşanan son anlaşılmazlıqları şərh etməsi də, İranın İsraillə əlaqələr səbəbindən Azərbaycanı hədəf alacağını gözləmədiyini qeyd etməsi də təsadüfi deyil. Təsadüfi deyil ki, Türkiyə Prezidenti İranla Azərbaycan arasında hərbi qarşıdurmanın olacağına inanmadığını söyləyir və bunu şərh edərkən onun bir sıra diqqət çəkəcək məqamlara toxunması da əbəs yerə deyil. "İsrailin Azərbaycanla əlaqələrinə görə İran Azərbaycanı hədəf seçə bilməz. Çünki bu gün İranda yaşayan azərbaycanlılarının sayı göz qabağındadır. Bu, təbii ki, düşündürür. O qədər də asan deyil. Görülən işlər səhvdir. Düşünürəm ki, İranın yeni rəhbərliyi bu səhvi davam etdirməyəcək", deyə vurğulayan dövlət başçısı əslində bununla İran tərəfinə çox böyük bir xatırlatma edib və ciddi bir mesaj verib. Daha dəqiq desək, İran tərəfinin öz ərazisində olan azərbaycanlıların sayı barədə düşünməsi xatırladılıb. Xatırladılıb ki, İranda azərbaycanlıların sayı əhəmiyyətli dərəcədədir və bu say çox böyük bir təsir imkanları deməkdir. "İranın yeni rəhbərliyi bu səhvi davam etdirməyəcək", sözü də məhz o deməkdir ki, İran bilə-bilə, dərk edərəkdən öz daxilində hansısa təlatümə yol vermək kimi bir səhvi etməz. Yəni, bu sadəcə İranın səhvi olar, deməkdir.

Bəli, bu zamana qədər İran bir növ anlaşılmaz addımlar atdı və bu heç də normal qarşılanmadı. Qanunsuz şəkildə Azərbaycan ərazilərindən keçməklə, yük avtomobilləri ilə ermənilərə yardım daşınmasından tutmuş, sərhəd ərazilərdə keçirilən təlimlərə qədər İranın addımları Azərbaycan tərəfindən sərt qarşılandı və nota verilməsi də bu baxımdan əbəs yerə deyildi, əksinə yerində və lazımlı, doğru-düzgün addım hesab olunur.

Bu adekvad addım İran üçün çox ciddi bir mesaj oldu. Əslində bu addımın nə demək olduğunu İran hər kəsdən daha yaxşı anladı. Bunun təfərrüatları barədə çox danışmaq olar. Amma bircə onu diqqətə çatdırmaq yetər ki, İran bir anda necə deyərlər, öz qınına girdi və sanki heç nə olmamış kimi susub durdu. Əslində bu hadisələr bir çoxlarına da dərs oldu. Dərs oldu ki, bölgədə hər hansı uyğunsuz addım qarşılanacaq və hansısa neqativ ciddi-cəhdlər yerindəcə boğulacaq, eyni ilə İranın timsalında olduğu kimi.

Bilirik ki, istər region düvlətləri, istərsə də regionda marağı olan qüvvələr hansısa mənada Azərbaycanın artıq yeni reallıqlar yaratdığı regionda iştirak etmək, mövcudluğunu bərpa etmək arzusundadırlar. Belə bir fürsəti isə diqqətdən yayındırmaq niyyətində də deyillər. Amma, onlar yaxşı başa düşürlər ki, Türkiyə liderinin səfərlərinin hər biri, onların belə bir fürsətinin olmayacağını xatırladan ciddi mesaj xarakteri daşıyır. Cənab Ərdoğan əslində bununla, öz səfərləri ilə mesaj verir ki, Azərbaycan regionda tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Yəni, kimlərinsə xam xəyallara düşməməsi üçün vaxtında, zamanında, özü də çox böyük uzaqgörənliklə, ustalıqla, məharətlə verilən mesajlardır.

Bəli, hər kəs bilir ki, cənab Ərdoğanın Azərbaycana mütəmadi səfərlər etməsinin pərdəarxası məqamları var. Ola bilsin ki, bu məqamları barədə başqa yanaşmalar da ola bilər və kim bilir hələ bundan sönra daha nə kimi məqamlar da üzə çıxa bilər. Amma, hər bir halda bu pərdəarxası məqamların mərkəzində, kökündə Azərbaycanla Türkiyənin sarsılmaz qardaşlığı, dostluğu, əməkdaşlığı durur və yenə də, sonsuza qədər, bir millət iki dövlət prinsplərinə əsaslanır.

***İnam Hacıyev***

## "Hər bir işdə Türkiyə Azərbaycanla bərabərdir"



"Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın Azərbaycan səfəri yenə də bütün dünyaya mesajdır ki, hər bir işdə Türkiyə Azərbaycan ilə bərabərdir". Bunu SİA-ya açıqlamasında deputat Asim Mollazadə deyib. Onun sözlərinə görə, Füzuli aeroportu olduqca qısa müddətdə hazır oldu.

Bu haqda Asim Mollazadə fikrini belə izah edib: "Bu Azərbaycanın "Böyük Qayıdış" layihəsini sürətlə davam etdirdiyinin bariz, açıq nümunəsidir. Bu işlərdə Türkiyə Azərbaycan ilə digər işlərdə olduğu kimi bərabər olacaq. Bununla da "Böyük Qayıdış" tezliklə təmin olunacaq". Türkiyə Azərbaycan birliyi sarsılmazdır və günü-gündən güclənir".

## "Türkiyə Azərbaycanın bütün vəziyyətlərində yanında oldu"



"Bildiyimiz kimi 44 günlük Vətən müharibəsi dövründə Türkiyə hər zaman Azərbaycana yaxından siyasi, mənəvi dəstək nümayiş etdirdi. Ümumiyyətlə Ermənistan tərəfindən torpaqlarımızın işğal altında saxlanıldığı 30 ilə yaxın müddətdə Türkiyə hər zaman haqlı mövqeyini dəstəklədi". Bu sözləri SİA-ya açıqlamasında deputat Elşad Mirbəşiroğlu deyib.

Onun sözlərinə görə, beynəlxalq tribunalardan Azərbaycanın ərazilərinin işğaldan azad olunmasının, ərazi bütövlüyünün təmin olunmasının vacibliyini bildirdi və bu istiqamətdə yaxından siyasi dəstək nümayiş etdirdi: "44 günlük Vətən müharibəsi torpaqlarımızın erməni işğalından azad edilməsi ilə nəticələndi. Ötən ilin noyabr ayının 10-da imzalanmış birgə bəyanat Ermənistan üçün kapitulyasiya sənədi idi. Azərbaycan birgə bəyanatda yer alan maddələrə uyğun olaraq öz ərazilərində kommunikasiyaları bərpa etməkdədir, tikinti və quruculuq işlərini həyata keçirməkdədir. Cənab Prezidentin vurğuladığı kimi keçmiş münaqişə vəziyyətində Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən dost ölkələr işğal altında olan ərazilərdə həyata keçirilən tikinti quruculuq işlərində iştirak etmək imkanına malik olacaqlar. Qardaş Türkiyə şirkətləri Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aktiv şəkildə quruculuq işlərində iştirak edirlər. Azərbaycan Prezidentinin işğaldan azad olunmuş ərazilərimizlə bağlı atdığı bütün addımlar özünün proqmatikliyi ilə seçilir. Bunların içərisində həmin ərazilərdə hava limanlarının tikilməsi ilə bağlı verilmiş qərarı xüsusilə qeyd etmək lazımdır. Bu mənada təxminən 8 ay müddətində inşası başa çatdırılan Füzuli aeroportu dünya ictimaiyyətinin yaxından izlədiyi infrastruktur layihəsidir. Ölkə Prezidentinin də vurğuladığı kimi dünya təcrübəsində bu dərəcədə minalanmış bir ərazidə təxminən 8 ay müddətində bütün beynəlxalq standartlara, tələblərə cavab verən beynəlxalq bir aereportun inşasına rast gəlinməyib. Bunu Azərbaycan bacardı. Azərbaycan Prezidentinin iradəsi, qətiyyəti, proqmatik siyasəti sayəsində həyata keçirməsi mümkün oldu".

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, Türkiyə prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın 26 oktyabrda Azərbaycana bir günlük səfəri çox gümanki Füzuli aeroportunun açılış mərasimi ilə əlaqəli ola bilər: "Füzuli aeroportunun açılış mərasiminin keçirilməsi bütövlükdə işğaldan azad olunmuş ərazilərimizin dünyaya bir qapı kimi təqdim olunması baxımından çox önəmlidir. Füzuli aeroportu işğaldan azad olunmuş ərazilərimizdə istifadəyə verilən ilk aereportdur. Bu aeroportun ilk olaraq olduqca strateji, coğrafi mövqeyə malik olan Füzuli şəhərində inşa olunması təsadüfi deyil. Bildiyimiz kimi Füzulidən çox vacib istiqamətlərdə Füzuli-Hadrut, Füzuli-Ağdam, Füzuli-Zəngilan, Füzuli-Cəbrayıl istiqamətlərində avtomobil yolları inşa olunmaqdadır. Füzuli hava limanının istifadəyə verilməsi qeyd etdiyim istiqamətlərdə kommunikasiyanı əhəmiyyətli dərəcədə səmərəli edəcəkdir və işğaldan azad olunmuş ərazilərimizi beynəlxalq hava limanı vasitəsilə dünyaya açmış olacaq. Düşünürəm ki, Ərdoğanın səfəri bununla ola bilər. Çünki Türkiyə Azərbaycanın bütün vəziyyətlərində yanında oldu. Hesab edirəm ki, həm cənab Prezident İlham Əliyevin, həm də Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Füzuli hava limanının açılış mərasiminin baş tutması dünya miqyasında olduqca pozitiv bir təsir gücünə malik olacaq".

***Arzu Qurbanzadə***

# “Türk dünyasının birliyinin və güclənməsinin əhəmiyyətini Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ illər öncə təkrar-təkrar vurğulayıb”




**“Türk dünyasının birliyinin və güclənməsinin əhəmiyyətini Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev hələ illər öncə təkrar-təkrar vurğulayıb”**

AZƏRTAC xəbər verir ki, panel iclasında Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) İdarə Heyətinin sədri Aslan Aslanov, Anadolu Agentliyinin (AA) Baş direktoru və İdarə Heyətinin sədri Sərdar Karagöz, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, Türkiyənin NTV media qurumunun Xarici əlaqələr və xarici xəbərlər redaksiyasının koordinatoru Ahmet Yeşiltepe və digərlərinin mövzu ilə bağlı çıxışları dinlənilib.

Tədbirdə çıxış edənlər türk dünyasının gələcəyinin qurulmasına xaricdən edilən təzyiqlərə, zorakılıqlara, separatçı cəhdlərə qarşı alternativ, lakin ədalətli mədəni, siyasi və iqtisadi birliyin yaradılmasının vacibliyini vurğulayıblar. Qeyd olunub ki, türk dünyasının gələcəyini qurmağın əsas yolu həmrəylik və əməkdaşlıqdan keçir. Bu birliyin ən gözəl nümunəsini Qarabağ müharibəsi dövründə gördük. Qarabağ Zəfəri türk dünyasının son dövrlərdə qazandığı ən böyük uğurlarından biridir. Burada biz yalnız torpaqlarımızı azad etmədik, eyni zamanda, birliyimizi qurduq. Burada ortaq iş görməyin və Zəfəri əldə etməyin həzzini yaşadıq. Bu Qələbənin əhəmiyyəti təkcə hərbi Zəfər deyil, birlik Zəfəridir. Dünya mediasında Azərbaycanın ərazi bütövlüyünün pozulması ilə bağlı təhlili yazı verilmədi. Biz bunu türk dünyası olaraq birləşərək dünyaya çatdırmağa çalışdıq. Bu proses yalnız 44 gün deyil, bütün işğal dövrünü də əhatə etdi. Azərbaycan və Türkiyə liderləri çox ciddi iradə ortaya qoyaraq xalqlarımızın birliyini gücləndirdilər. Bunun nəticəsidir ki, Türkiyə KİV-ləri yayımlandığı hər dildə Ermənistanın Azərbaycana qarşı təxribatları haqqında yazmağa başladı. Burada kommunikasiya idarələrimizin rolunu xüsusi qeyd etmək lazımdır.

Çıxışında Türk Şurasının Baş katibi Bağdad Amreyevin rəhbərliyi ilə Şuranın fəaliyyətinin çox geniş və müxtəlif sahələri əhatə etdiyini bildirən Aslan Aslanov deyib: ”Bu çoxşaxəli fəaliyyət və reallaşdırılan layihələr Türkdilli dövlətlərin birliyinə, xalqlarımızın və cəmiyyət institutlarının daha da yaxınlaşmasına xidmət edir. Buna ən yeni misal olaraq, Azərbaycanın 44 günlük Vətən müharibəsi zamanı Türk Şurasının dəstəyini və çox önəmli bəyanatını qeyd etmək istərdim. Bu, türkdilli ölkələr arasındakı birliyin, həmrəyliyin real təzahürü kimi diqqət çəkir. Biz ortaq tarixə, ortaq mədəniyyətə, ortaq dilə və dinə mənsub dövlətlər və xalqlarıq. Bu ortaq dəyərlər qloballaşan, lakin bəzi hallarda qütbləşən müasir dünya düzənindəki yerimizi və rolumuzu müəyyənləşdirmək üçün çox mühüm istinad nöqtələridir. Türk dünyası olaraq gələcəyə gedən yollarımız da məhz burada kəsişərək qovuşur”.

Türk dünyasının güclənməsinin və birliyinin əhəmiyyətinin Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hələ illər öncə təkrar-təkrar vurğuladığını xatırladan A.Aslanov deyib: ”Ulu Öndər deyirdi ki, özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyasının xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir. Öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. Artıq gerçəkləşməkdə olan bu ümidlər gələcək barədə daha nikbinliklə danışmağa əsas verir”.

Bu gün Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyənin regionda önəmli mövqeləri ilə seçilən və qlobal təhlükəsizliyə mühüm töhfələr verən dövlətlər olduğunu xatırladan Aslan Aslanov dövlətlərimizin və xalqlarımızın potensialının real qiymətləndirilməsi və bu gücün birləşdirilməsinin gələcəyimiz üçün xüsusi önəmə malik olduğunu vurğulayaraq bildirib: ”Təəssüf ki, bu gün dünyada türk düşmənçiliyi, islamofobiya və bu kimi digər ədalətsizliklər ilə üz-üzəyik. Biz zamanın gözlənilən və gözlənilməyən çağırışlarına birlikdə cavab versək, mövcud təhdidlərin qarşısına birgə çıxsaq, önümüzdə heç bir qüvvə duruş gətirə bilməz. Azərbaycan Qarabağda qurtuluş savaşına qalxdığı vaxt Türkiyənin, eləcə də Türk Şurasının mənəvi-siyasi dəstəyi bunun əyani təsdiqidir”.

Azərbaycan-Türkiyə qardaşlığının Türk dünyasının gələcəyi üçün ən yaxşı model, nümunə ola biləcəyini xüsusi qeyd edən Aslan Aslanov deyib: ”İstanbula səfər öncəsi tarixi vərəqləyərkən 2014-cü ilin aprelində Praqada keçirilən ”Şərq tərəfdaşlığı” Sammitində baş verən bir olayı xatırladım. Türkiyə bu sammitdə təmsil olunmurdu. Türkiyənin qarasınca danışan birinin sözünü Azərbaycan Prezidenti İlham Əliyev kəsərək ”Türkiyə burada yoxdur, amma mən varam” dedi və Türkiyə həqiqətlərindən danışdı. Azərbaycanın olmadığı siyasi məkanlarda, beynəlxalq siyasi müstəvidə isə onun sözünü Türkiyə deyir. Mən Praqada 7 il əvvəl baş vermiş hadisəni təsadüfən dilə gətirmədim. Hesab edirəm ki, bu, Türk dünyasının arzuladığımız və can atdığımız gələcəyi üçün bir örnək, o cümlədən biz media nümayəndələri üçün də ibrətamiz nümunədir.

Bu gün türkdilli dövlətlərin media sahəsində əlaqələri də möhkəmlənməkdə olan əməkdaşlığımızın ruhuna uyğun inkişaf edir. Türk Şurasının təşəbbüsü ilə keçirilən görüşlərimiz, eləcə də bu mediaforum informasiya və təcrübə mübadiləsi üçün münbit zəmin yaradır”.

Yaşadığımız dövrün informasiya mühitinin müasir reallıqlarının media qurumları arasında sıx əməkdaşlığı, çevik informasiya mübadiləsini, qarşılıqlı kadr hazırlığı məsələlərini getdikcə aktuallaşdırmaq olduğunu qeyd edən AZƏRTAC-ın İdarə heyətinin sədri Ermənistanın 30 il işğal altında saxladığı torpaqları azad etmək uğrunda Azərbaycanın apardığı Vətən müharibəsi zamanı informasiya cəbhəsində nələr baş verdiyinin şahidi olduğumuzu xatırladadaraq deyib: ”Feyk xəbərlərin, reallıqdan çox-çox uzaq olan qərəzli məlumatların yayılması, Azərbaycana aşkar təzyiq cəhdləri və sair. Azərbaycan mediası bu informasiya savaşından möhkəmlənərək, böyük təcrübə toplayaraq çıxdı. Xüsusi olaraq vurğulamaq istəyirəm ki, qardaş Türkiyə mediasının müharibə dövründə Azərbaycana verdiyi dəstək dezinformasiyaların qarşısını almaqda və dünyaya əsl həqiqətləri çatdırmaqda əvəzedilməz rol oynadı. Müşahidələrimiz onu deməyə əsas verir ki, türkdilli ölkələrin mediası lazım gəldikdə bir-birinin haqq səsini dünyaya çatdırmaq üçün güclü resurslara malik olmalıdır. Bu hədəfə isə, ilk növbədə, dünya təcrübəsini mənimsəməklə, yeni trendləri çevik tətbiq etməklə nail olmaq mümkündür. Media platformalarının yaradılması və inkişafı bu baxımdan önəmlidir”.

# “Qızların əksəriyyəti yaxşı ailəni maddiyyatı yüksək olanlarda görür” - CƏMİYYƏT BAXIŞI

Ailə qurmaq gənc yaşına çatan hər bir kəsin arzusudur. Ancaq ailə quran zaman tələsmək bu nikahın uzunömürlülüyünə heç də zəmanət vermir. Hər şeydən öncə qarşılıqlı hisslərin bütövlüyünə və səmimiyyətinə güvənmək üçün zamana ixtiyar verin. Nikah kişi və qadının qanunla qorunan bir qurum daxilində ər-arvad rollarını mənimsəyərək ömürlərini birlikdə keçirmələri, müəyyən statusa malik övladlar dünyaya gətirərək nəsillərini davam etdirmək üçün formalaşdırdıqları münasibətlər sistemidir. Bəs görəsən şəhər sakinləri evliliyə və boşanma hallarına necə baxırlar? SİA olaraq şəhər sakinləri arasında sorğu keçirdik:



**Şəhər sakini Ruslan Vəliyev:** “Müsbət tərəfi ondan ibarətdir ki, bu cür şirin balalar dünyaya gəlir, onların həyatımızda olması ayrıca rəng qatır. Mənfi cəhəti isə əfsuslar olsun ki, boşanmalar çoxdu, tez qərar verib yanlış insanı seçirlər və sonu da boşanma ilə bitir. Təəssüf hissi ilə bildirirəm ki, belə boşanmalar insanların sevgiyə inamını da öldürür. Həmin insanlar bir daha xoşbəxt ola bilməyəcəklərini düşünürlər. Həyatda biz nə etsək də problemlərlə üzləşirik. Əsas odur ki, hər bir şeyə pozitiv yanaşaq və həyata davam edək”.



**Şəhər sakini Rəşad Mahmudov:** “Əgər cəmiyyət, insanlar, inkişaf varsa əlbəttə insanlar evlənməlidir, nəsil artırmalıdır. Biz Avropa ölkələrinə baxanda görürük ki, orada insanların çoxsu evlilik etmirlər, əksəriyyəti hansısa heyvana sahiblənib, onunla yaşayır və xoşbət olduqlarını düşünürlər. Ancaq müsəlman ölkələrinin əksəriyyətində evlilik mütləq olur, nəsil davam edir və çox vaxt cütlüklərin qucağında uşaqları görürük. Bunun həm bioloji tərəfdən, həm də, sosial tərəfdən müsbət cəhətləri var. Bu barədə yeni evlilərə sual verdikdə isə onlar maddi sıxıntılarının olduğunu deyirlər, məncə bu bəhanədi. Allah o övladı verirsə, onun ruzisini də verir. Evliliyin mənfi tərəfinin olduğunu isə düşünmürəm”.



**Şəhər sakini Kamil İsrafilov:** “Evlilik həyatda alınan ən önəmli qərarlardan biridir. Gərək həyat yoldaşını elə seçəsən ki, onun hər xarakterini, davranışlarını qəbul edə biləsən. Bu da zaman tələb edir ki, qadın və kişi bir-birini az da olsa yaxından tanımalıdı. Lakin, indiki gənclər bu məsələyə laqeyd yanaşırlar, evliliyi oyuncaq bilirlər ki, bu da boşanmalara səbəb olur. Evliliyin müsbət və mənfi cəhəti yoxdur. Evlilik evliliktdir, iki insanın həyatını birləşdirməsidir. Bunun pis və yaxşı cəhətləri isə sadəcə fərziyyədir. Kim özünə nəyi sərf edirsə bunu müsbət, sərf etmirsə mənfi bilir”.



**Şəhər sakini Elvin Məmmədov:** “Mən hələki evlənmədiyimə görə evlilik barədə çox da məlumatım yoxdu. Ancaq mənim fikrimcə, ideal evlilikdə cütlüklərin bir-birinə qarşılıqlı hörməti mütləqdir. Çünki, xoşbəxt evliliklərin təməli hörmət üzərində qurulur. Əfsuslar olsun ki, mən görürəm ki, kişi və qadın bir mübahisə olan kimi anında münasibəti bitirmək istəyir və qarşısındakı şəxsi dinləmək belə istəmir. Düşünürəm ki, boşanmaların səbəbi də elə məhz bu səbəbdən baş verir. Cütlüklər ən azından aradakı hörməti qoruyub saxlasalar və birbirlərinin fikirlərinə sayğı duysalar evlilikləri də ideal olar”.



**Şəhər sakini Osman Rzayev:** “O dövrdə bir oğlan bir qızı sevdikdə və onunla danışdıqda onların münasibəti mütləq evliliklə nəticələnirdi. Lakin indi sevgi deyilən hissin varlığı belə bilinmir. Çünki, hər kəs hər qarşısına çıxanı görüb bəyənir və onunla münasibət qurur, bunu da sevgi zənn edir. Belə “sevgi”dən yaranan evliliklərin də sonu hüsran olur. Sevgi hissi o qədər adiləşib ki, bu xoşlanmaqla qarışdırılır. Məncə gənclər evliliyi yanlış anlayırlar və yaxud bunu onlara valideynləri düzgün başa salmır. Boşanmaların böyük səbəbi isə valideynlərin verdiyi tərbiyədən qaynaqlanır. Biz yaxşı valideyn olmalıyıq ki, övladlarımız da yaxşı valideyn olmağı bizlərdən öyrənsinlər”.



**Şəhər sakini Samir Cəfərov:** “Evli olmadığıma görə evliliyin necə bir həyat olduğunu bilmirəm. Ancaq evli olan tanışlarımın çoxusu xoşbəxt deyillər. Düşünürəm ki, evliliyə çox ciddi yanaşmalıyıq. Dünyaya gələn uşaqların gələcəyi valideynlərin əlindədi. Onların tərbiyyəsi, gələcəyi valideynlərin üzərinə düşən böyük vəzifədir. Evlənmədən öncə də bu kimi məsuliyyətləri göz önünə gətirmək də şərtdir”.



**Şəhər sakini Elmir Soltanov:** “Fikrimcə, evlilik təkcə eyni evdə yaşamaqdan ibarət deyil. O evin içində baş verən hadisələr evin aynasıdır. Yaxşı evlilik həyatı hər iki cinsdən asılıdır, iki tərəf də yola verməyi bacarmalıdı. Belə deyək, yaxşı anların xatirinə pis hadisələri unutmaq lazımdı. Əgər belə olmasa, cütlüklər bir-birini anlamağa və dinləməyə çalışmasa evliliyin uzunömürlülüyü azalacaq və bitəcək. Məncə evliliyin pis tərəfi çox da yoxdur. Yaxşı tərəfi isə iki sevən bir-birləri ilə həyatlarını birləşdirir və onların həyatını rəngləndirən övladları dünyaya gəlir, bu da bir valideyn üçün ən böyük xoşbəxtlikdir”.

**Şəhər sakini Rəvan Əhmədov:** “Ailə kiçik bir dövlətdir, onun dəyərini ailəsinə sadiq cütlüklər anlayar. Mən evli bir şəxs kimi deyə bilərəm ki, indi gənclərin, əsasən qızların əksəriyyəti yaxşı ailəni maddi durumu yüksək olan oğlanlarla münasibət qurmaqda görürlər. Bu da özlüyündə evlilikdə verilən ən yanlış qərarlardan biridir. Məncə evliliyi maddiyyatla əlaqələndirməsək daha yaxşı olar. Boşanmaların səbəbinin çoxunun da maddiyyatla bağlı olduğunu düşünürəm”.

# "Dəmir yumruq" tarixi ədaləti bərpa etdi



## *Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru Bəxtiyar Sadıqovun yap.org.az-a müsahibəsi*

***- Bəxtiyar müəllim, Şanlı Zəfərimizlə bitən 44 günlük Vətən müharibəsindən bir il ötür. Bu Qələbəni şərtləndirən amilləri nədən ibarətdir və yaranmış yeni reallıqları necə dəyərləndirirsiz?***

- Bu günlərdə böyük fəxarətlə 44 günlük Zəfərin birinci ildönümünü qeyd edirik. Hər gününü sonsuz ümidlə, həyacanla, sevinc və göz yaşları ilə yaşadığımız möhtəşəm 44 gün! İndi həmin günləri açıq ürəklə, açıq alınla yaşayır, qürur və fərəh hissilə xatırlayırıq. 44 günün hər günü şanlı tarixdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin hərbi-siyasi qələbəsi ilə bitən bu savaş ilk növbədə dünyaya Azərbaycan qüdrətini nümayiş etdirmiş oldu. İşğalçı Ermənistan 30 ilə yaxın müddətdə büynəlxalq təşkilatların yaratdıqları ikili standartlar prinsipi və cəzasıqlıq mühitindən yararlanaraq məkirli oyunlarından əl çəkmədi. Azərbaycana qarşı bütün dövrlərdə təxribatlar törədildi. Amma Azərbaycan dövləti və onun uzaqgörən lideri Prezident İlham Əliyev hər zamankı kimi səbr nümayiş etdirdi, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinin tərəfdarı oldu. Ermənistan isə status-kvonun saxlanması üçün bütün çirkin oyunlara əl atdı.

Amma hər şeyin bir sonu olmalıdır və olur. Ermənistanda hakimiyyətin Ter-Petrosyandan sonra kriminal, cinayətkar Koçaryan və Sarkisyan klanının əlinə keçməsi düşməni daha da azğınlaşdırmışdı. Artıq onlar nəinki işğal ərazilərini qaytarmayacaqlarını açıq şəkildə bəyan edirdilər, hətta yeni əraziləri tutacaqları ilə bizi hədələyirdilər. Ermənilər ürəkdən inanmışdılar ki, Azərbaycan ərazilərini öz gücləri ilə işğal ediblər.

Nikol Paşinyanın rəhbərliyə gəlməsi vəziyyəti daha da qəlizləşdirdi. Paşinyan ermənilərin ürəklərindəkiləri ucadan söyləyirdi. Gah sinəsi orden-medallarla dolu generalların əhatəsində Şuşada sərxoş olub yallı gedirdi, gah oğlunu Xankəndinə hərbi xidmətə göndərirdi, gah Dağlıq Qarabağı tərəf kimi danışıqlar prosesinə gətirmək istəyirdi.

Azərbaycanın isə dolan səbr kasası daşmaq üzrə idi. Paşinyanın sərsəmləmələri və Ermənistanın hərbi-siyasi təxribatları Prezident İlham Əliyevin qəzəbinə və qəti addımlar atmasına səbəb oldu.

Hələ müharibə başlamazdan əvvəl Azərbaycan Prezidenti dünya birliyinə, beynəlxalq təşkilatlara müraciət edərək Ermənistanın Qarabağda qanunsuz məskunlaşma apardığını və müharibəyə hazırlaşdığını faktlarla göstərirdi. Sonuncu dəfə isə Prezident İlham Əliyev 24 sentyabr 2020-ci ildə, savaşın başlamasından 3 gün öncə BMT-nin ali tribunasından istifadə edərək bir daha dünya birliyinə çağırış etdi: "Etnik təmizləmə aparmış işğalçı ölkənin silahlarla təchiz edilməsi sülh danışıqlarını ciddi şəkildə sarsıdır və işğalçı dövləti yeni hərbi təxribatlara əl atmağa həvəsləndirir. Bu mənada biz bütün ölkələri Ermənistana silah təchizatından çəkinməyə çağırırıq".

Amma Ermənistan yenə də çirkinliklərdən əl çəkmədi və sentyabrın 27-də cəbhənin bütün istiqamətlərində təxribatlat törətdi. Buna cavab olaraq Azərbaycan Ordusu əks-həmlə əməliyyatlarına başladı. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev qudurmuş düşməni yerində oturtmaq, işğal altındakı ərazilərimizi geri qaytarmaq üçün "İrəli" əmrini verdi! Beləliklə, Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda II Qarabağ savaşı, müqəddəs Vətən müharibəsi başladı.

Azərbaycan dövləti, xalqı və ordusu məqsədə çatmaqdan ötrü bütün gücünü və imkanlarını ortaya qoydu, dərhal səfərbər olunaraq qüdrətli, nəhəng yumruğa çevrildi.

Onu da vurğulamaq yerinə düşər ki, Müzəffər Ali Baş Komandan İlham Əliyev bu müharibəyə aşkar və məxfi şəkildə bütün bacarıq və qabiliyyəti, istedad və xarizması ilə hazırlaşmışdı. Qətiyyətli, prinsipial Lider nəyi, nə vaxt və necə edəcəyini dəqiq müəyyənləşdirmişdi.

Bunun nəticəsi də Ermənistan üçün çox ağır oldu. İlham Əliyev qısa vaxt - 44 gün ərzində dəmir yumruğu ilə düşmənin başını əzib, belini qırdı. Yeni taktika və strategiya tətbiq edərək Ermənistan ordusunu məhv etdi, qorxaqlar və fərarilər yığnağına çevirdi.

Vətənpərvər Azərbaycan gənci özünü döyüş meydanında, mənfur düşmənə qarşı mübarizədə ən yaxşı cəhətdən göstərdi. Bütün döyüş tapşırıqlarını cəsarətlə, igidliklə yerinə yetirdi, şücaət və qəhrəmanlıq nümayiş etdirdi. Şuşa kimi qala şəhərini sıldırım qayalara dırmaşmaqla, çətin cığırlardan keçməklə, yüngül silahlarla az qala əliyalın aldı. Bir sözlə, Azərbaycan gəncinin nəyə qadir olduğunu, əsil vətən sevgisinin necə olduğunu bütün dünya gördü.

Ali Baş Komandan İlham Əliyev qoyduğu şərtlər əsasında düşmənə təslim aktını, üçtərəfli bəyanatı imzalatdırdı, Ağdam, Laçın və Kəlbəcəri bir güllə belə atmadan, dinməz-söyləməz qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının 30 illik həsrətinə son qoyuldu və İlham Əliyev əsrlər sonra ilk dəfə olaraq Qüdrətli Sərkərdə kimi itirilmiş torpaqları qaytardı. İki əsrlik Qarabağ münaqişəsini birdəfəlik, həm də uğurla həll etdi. Azərbaycan xalqını dünyaya məğrur, döyüşkən, öz torpaqlarına sahib çıxan xalq kimi yenidən tanıtdı.

Azərbaycan Ordusunun möhtəşəm hərbi əməliyyatları, 44 günlük zəfər müharibəsində Müzəffər Ali Baş Komandanın irəlicədən söylədikləri bütünlüklə həyata keçdi. Vətən müharibəsi ilk növbədə zəka, uzaqgörənlik, müdriklik, qətiyyət və möhkəm iradə müharibəsi idi. Döyüşən ordulara rəhbərlik edənlərin bu sahədəki fərqi özünü hərbi əməliyyatların gedişində, orduların hazırlıq səviyyəsində, seçilən taktika və strategiyada, müharibəyə hazırlıq və döyüşlərin davam etdiyi müddətdə yeridilən daxili və xarici siyasət, atılan diplomatik addımlar - bütövlükdə maharibənin nəticəsində özünü parlaq şəkildə göstərdi.

Şanlı Zəfər bu gün Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Azərbaycan Prezidenti məhz bu reallıqlar fonunda yeni əməkdaşlıq platformalarının yaradılması istiqamətində təkliflərini səsləndirir. Yəni şərtləri indi İlham Əliyev diktə edir. Məğlub Ermənistan isə Azərbaycan Prezidentinin irəli sürtüyü şərtlərlə hesablaşmağa məhkumdur.

Qarabağı "dəmir yumruq" əməliyyatı ilə cəmi 44 günə düşməndən təmizləyən Müzəffər Ali Baş Komandan İlham Əliyev bu gün dəmir iradə ilə işğaldan azad olunmuş torpaqlarımızda böyük tikinti-quruculuq işlərinə başlayıb. Erməni barbarlarının daşı-daş üstündə qoymadıqları şəhərlərimizin Baş Planını təsdiq edərək daha möhtəşəm şəhərlər qurur. Bir vaxtlar torpaqlarından didərgin düşmüş bir milyona yaxın insana çadır şəhərcikləri yaradan, sonradan onlar üçün yeni yaşayış komplekskəri tikən ölkə bu gün həmin vətəndaşın öz doğma yurduna qayıtması üçün Qarabağı yenidən qurur. Bu, ilk növbədə Prezident İlham Əliyevin son 18 ildə tarixinin ən qüdrətli dövlətinə çevirdiyi Azərbaycanın iqtisadi qüdrətinin göstəricisidir.

***- Oktyabr ayının 15-də dövlət başçısı İlham Əliyevin ilk dəfə Prezident seçilməsinin 18 ili tamam oldu. Sizcə bu illər ərzində Azərbaycan hansı yolları keçib, hansı uğurları, nailiyyətləri əldə edib?***

- 2003-cü ildə Ulu Öndər Heydər Əliyev xalqa müraciət edib bu fikirləri söylədi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Xalq hər zaman Ümummilli Liderə inanıb güvənirdi. Buna görə də Ulu Öndərin çağırışına cavab olaraq cənab İlham Əliyevə böyük etimad göstərərək özünə lider seçdi. Prezident İlham Əliyev isə verdiyi bütün vədlərə əməl etməklə xalqın fəxarət ünvanına, alternativsiz liderinə çevrildi və Azərbaycanı Ulu Öndərin görmək istədiyi səviyyəyə yüksəltdi. Hər zaman güc aldığı xalqdan etimad mandatı alan cənab İlham Əliyev andiçmə mərasimində Azərbaycanı böyük zəfərlərə doğru aparacağına, söz verdi.

Diqqət etsək görərik ki, bu illərdə hərtərəfli islahatlar, quruculuq və yüksəliş baxımından Azərbaycan qədər sürətli inkişaf yolu ilə gedən ikinci ölkə yoxdur. Bunu deməyə əlimizdə kifayət qədər faktlar var. Məhz Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu iqtisadi, sosial və siyasi islahatların nəticəsi olaraq XXI əsrdə Azərbaycan böyük inkişaf yolu keçdib.

Cənab İlham Əliyevin Prezidentlik fəaliyyətini dəyərləndirərkən əminliklə, qürurla söyləyə bilərik ki, Azərbaycanın inkişaf yolu başqa ölkələr üçün işıq yoludur.

Prezidentin də söylədiyi kimi, Azərbaycan dövləti özünün mövcudluq tarixində heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmamışdır.

Ən nəhayət, cənab İlham Əliyev Azərbaycan xalqının taleyüklü məsələsi olan Dağlıq Qarabağ münaqişəsini hərbi-siyasi yolla həll etdi. Bir sözlə, Prezident İlham Əliyev həm də Azərbaycan tarixinə xilaskar lider kimi adını yazdıraraq xalqın qəlbində əbədi olaraq heykəlini ucaltdı.

***- Müstəqilliyimizin bərpasının 30-cu ildönümünü qeyd etdik. Torpaqlarını azad edən Azərbaycan ilk dəfə olaraq bu bayramı tam başqa ab-havada, fərqli şəkildə yaşadı. Bunu necə dəyərləndirərdiniz?***

- Müstəqil dövlətə sahib olmaq, müstəqil dövlətdə yaşamaq bir səadətdir. Amma hər xalqa nəsib olmayan səadətdir. Müstəqil yaşamaq üçün ən əvvəl Vətən adlı ərazin, torpağın, yeraltı və yerüstü sərvətlərin, xalqı dolandırmaq üçün lazımi imkan və şəraitin olmalıdır. Ən nəhayət, müstəqil dövləti qurmağı, idarə etməyi, yüksəltməyi, təlatüm və bəlalardan qorumağı bacaran liderin, rəhbərin olmalı, onun ətrafında yumruq kimi birləşməyin zəruriliyini dərk etməlisən. Ötən 30 ildə dövlətimizin taleyində çox hadisələr baş verdi, bir çox dolanbaclardan keçməli olduq, məşəələrlə üzləşdik. Lakin Ulu Öndər Heydər Əliyev və İlham Əliyev kimi qüdrətli liderlərin sayəsində, həmçinin milli həmrəyliyimizin nəticəsində bütün çətinliklərə sinə gərdik, dövlətçiliyimizi və müstəqilliyimizi qoruduq, əbədi etdik. Bu baxımdan müstəqilliyimizin bərpasının 30-cu ildönümünə doğru tarixmiz dövlətçiliyimizi şərəfləndirən hadisələrlə zəngindir.

Prezident İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasət isə qısa müddətdə Azərbaycanı dünya birliyinin sayılıb-seçilən üzvünə, beynəlxalq tədbirlərin, qloballaşan dünyanın problemlərinin çözüldüyü məkana çevirdi. İnkişafın Azərbaycan modeli, multikulturalizm modelimiz dünyanın diqqətini özünə çəkdi, bir çox ölkədə öyrənilməyə başlandı və örnəyə çevrildi. Azərbaycan kosmik dövlətlər ailəsinə daxil oldu, müasir, modern dövlətə çevrildi.

Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir. Bu gün isə Azərbaycan öz qüdrətli Liderinin uzaqgörən, qətiyyətli siyasəti ilə regionda yaranmış yeni reallıqlar fonunda daha möhtəşəm gələcəyə doğru inamla addımlayır.

## Paşinyan: "Cənubi Qafqaz regionunda düşmənçilik atmosferini aradan qaldırmalıyıq"

Cənubi Qafqaz regionunda iqtisadi və nəqliyyat infrastrukturunun açılması Ermənistan iqtisadiyyatının məzmun və keyfiyyət baxımından inkişafına müsbət təsir göstərəcək. AZƏRTAC xəbər verir ki, bunu Ermənistan baş naziri Nikol Paşinyan ölkə parlamentindəki çıxışı zamanı söyləyib.



Onun sözlərinə görə, bölgədə sabitlik və təhlükəsizlik tədbirlərinin gücləndirilməsi vacibdir. Bu, təkcə Ermənistan və Qarabağ bölgəsi üçün deyil, bütün region dövlətləri üçün vacibdir.

"Düşünürəm ki, Cənubi Qafqaz regionunda düşmənçilik atmosferini aradan qaldırmalıyıq. Bu, regional inkişafın yeganə yoludur", - deyə Paşinyan vurğulayıb.O, həmçinin deyib: "Düşmənçilik atmosferinin aradan qaldırılması regional iqtisadi və nəqliyyat infrastrukturunu blokadadan çıxaracaq. Bu, eyni zamanda, Ermənistanın daxili infrastrukturunun yaxşılaşmasına əlavə stimul olacaq, iqtisadiyyatın inklüziv və uzunmüddətli inkişafına, vətəndaşların iqtisadi fəallığının artırılmağa bərabər şərait yaradılmasına təkan verəcək".

## Stefano Luçidi: "Azərbaycanın yürütdüyü siyasət bölgəyə daimi sabitlik və sülh gətirəcək"

Azərbaycanın yürütdüyü siyasətin bölgəyə daimi sabitlik və sülh gətirəcəyinə ümid edirəm. Bu sözləri AZƏRTAC-a müsahibəsində İtaliya parlamentində İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri, Senatın xarici əlaqələr daimi komissiyasının üzvü senator Stefano Luçidi deyib.



Dövlət müstəqilliyinin bərpasından ötən 30 il ərzində Azərbaycanın böyük inkişaf yolu keçdiyini bildirən S.Luçidi qeyd edib: "Bu illər ərzində Azərbaycan xarici siyasətdə öz potensialından maksimum dərəcədə istifadə edə bilib. Azərbaycan müstəqillik illərində qeyri-adi işlərin öhdəsindən gəlməklə demək olar yeni bir inkişaf modeli yaradıb. Öz enerji mənbələrindən səmərəli istifadə etməklə Azərbaycan iqtisadi resurslarını və maliyyə potensialını artırıb, regiondakı digər dövlətlərlə müqayisədə böyük inkişaf yolu keçib, Qafqazda və bütövlükdə Avrasiyada mühüm mövqeyə sahib ölkəyə çevrilib. Azərbaycan siyasi müstəqillik yolu ilə yanaşı, geosiyasi müstəvidəki mövqeyi ilə də təkcə ənənəvi müttəfiqlərlə əlaqələrini inkişaf etdirməyib, həmçinin özünə yeni dostlar və tərəfdaşlar qazanıb. İtaliyanın burada xüsusi yeri var. İtaliya Azərbaycanın Avropa dövlətləri arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığının ən güclü olduğu ölkədir. İtaliya, həmçinin Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir".

İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri vurğulayıb: "Keçən ilin bu vaxtlarında şahidi olduğumuz müharibədə Azərbaycan haqlı mövqeyi ilə öz torpaqlarını işğaldan azad etdi və yeni bir mərhələyə qədəm qoydu. Ümid edirəm ki, Azərbaycanın yürütdüyü siyasət bölgəyə daimi sabitlik və sülh gətirəcək. Qonşu ölkələr isə regiondakı bu sabitlikdən faydalanacaq və ən əsası isə Azərbaycan kimi güclü ölkə ilə əməkdaşlıq edəcəklər".

# ŞUŞADAN GƏLƏN "SƏS"İMİZ!

## SƏFƏR QEYDİ+REPORTAJ

**Azad Şuşamıza səfər edəcəyimizi öyrəndikdə içimizdə anidən coşan sevinc hissini ərz etmək, anlatmaq, istər yazılı, istərsə də şifahi dildə ifadə etmək çox çətindir. Lakin hər necə olursa-olsun, düz 28 il boyunca yağı düşmənin murdar tapdağı altında inim-inim inləyən, əzab çəkən, qıvrılan, ağlayan, bu gün isə azad olan Şuşamıza getmək, bu gedişin hisslərini bölüşmək mütləq mənada öhdəmizə düşür. Həm də düşünürük ki, verilən sualların cavabını da tarixi səfər tarixçəmizi işıqlandırmağımızla verə bilərik.**

Və çox yəqin ki, 28 illik Şuşa həsrəti ilə alışıb-yananlar, Şuşaya gedənlər, onun işğaldan qurtulmuş yaralarını qala divarlarına, torpağına, daşına sığal çəkərək saranlar həmin hissləri daha yaxşı anlayırlar, bilirlər.

Səfərimiz zamanı Müzəffər Sərkərdəmiz, Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə, eləcə də qəhrəman övladlarımızın şücaəti və yeni dünyaya silinməz tarix yazan fədakarlıqları ilə 44 günün hər dəqiqəsinin, hər anının nə qədər dərin, ölçüyəgəlməz, nəhəng məna kəsb etdiyini bir daha dərk etmiş oluruq. Vətən müharibəsi və düşmənə qan udduran, onu öz kirli qanı içində boğub-məhv edən Dəmir Yumruq və Azərbaycan Əsgəri, biz Sizlərə əbədiyyən minnətdarıq!




## Şuşa, biz sənə gəlirik!

Beləliklə, Şuşa yolçuluğumuz belə başladı. İlk olaraq, Şuşa səfərimizin təşkil olunmasında təşəbbüskarlıq göstərən "SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyevə və eyni zamanda, səfərimizin gerçəkləşmə-




sində vəsilə olan rəsmi orqan nümayəndələrinə, Prezident Administrasiyasında fəaliyyət göstərən məsul şəxslərə öz dərin minnətdarlığımızı çatdırmaq istərdik. Axı bizim xəyalımız gerçəkləşmişdi, özü də ən ümdə xəyalımız! Niyəsi isə budur:

"SƏS" TV-nin redaktoru Cabir Məmməd Şuşanı ilk dəfə görəcəkdi, operatorumuz Çingiz Abdullayev isə həm də Şuşa fatehlərimizdəndir və bu dəfə səfərini əlində silahla deyil, kamerası ilə reallaşdırırdı. Mənə gələndə, Şuşamızı ömrümdə ikinci dəfə görəcəkdim, düz 31 ildən sonra! Bir zamanlar, yeniyetmə çağlarımda əmim, mərhum jurnalist Firuddin Rəsulov "Kommunist" qəzetinin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri çalışdığı vaxtlarda məni özü ilə Qarabağımıza aparır, sanki bu torpaqlarımızın xəyanətlər hesabına itiriləcəyini, işğal ediləcəyini hiss edirmiş kimi bacardığı qədər çox görməyimə çalışırdı. Bax, onda da Şuşamızı ilk dəfə gördüm! Onun qala divarlarının möhtəşəmliyinə heyranlıqla baxdım, şəhərin tarixi küçələrinin ecazkarlığına, çəkiciliyinə valeh oldum, sanki bir nağıllar aləminə düşmüşdüm və bu sehrdən çıxa bilmirdim. Təsəvvür edin, bu qədər keşməkeşli tarixlərdən, hadisələrdən sonra ayağım yenidən Şuşaya dəyəcəkdi. İnsanın içindən çıxmaq istəyən sevinc çığlığı və onu basan qəhər bir-birinə



qarışarkən, bu hissi izah etmək heç cür mümkün olmur.

İndi görün, Şuşanı ilk dəfə görmək insanda necə təəssürat yaradır. Misal üçün, həmkarım Cabirin yol boyunca Şuşaya tez çatmaq və qarış-qarış gəzmək istəyi onun daxilindəki tələskənliyini simasına hopdurmuşdu.

Operatorumuz Çingizin isə yol boyunca Şuşa döyüşləri barədə bəhs etdiyi məqamlarından hiss olunurdu ki, onun daxilindəki həmin həyəcan yenidən çağlayır və bir an əvvəl danışdığı, zarafatlaşdığı silah dostlarının Şuşanın işğaldan azad edilməsi uğrunda şəhid düşmə anlarını yenidən yaşayır, təlaşlanır və göz yaşlarını güclə saxlayır..



Səfərimiz boyunca ikiqat zəhmət çəkən, həm də qrup rəhbərliyi edən baş redaktorumuz Bəhruz müəllimin isə hisslərini anlatmaq daha çətindir. Çünki onun özü olmasa belə, yaxınlarının Şuşa ilə əlaqəli bir çox bağlantıları, olayları vardır. Qardaşı Rasim müəllimin Şuşa şəhərinin girişindəki internat məktəbində təhsil aldığı dövrlərdən bəhs edən Bəhruz müəllim rəhmətlik atası Vaqif müəllimin tez-tez oraya səfər etdiyini, övladını görməyə getdiyini danışır.

O cümlədən, rəhmətlik əmisi oğlu, şəhid Elşən Nəsirovla bağlı təəssüratlarını bölüşərkən bildirir ki, Şuşa 1992-ci ilin 8 may tarixində işğala məruz qaldıqdan sonra onlar Daşaltı istiqamətindən şəhəri geri almaq üçün qəhrəmanlıqla mücadilə aparıblar, lakin davamlı xəyanətlər nəticəsində geri çəkilərək Laçına doğru istiqamət alıblar. Elşən Nəsirov da Laçın istiqamətində, Zarıslı-Turşu yolunda canını Vətən uğrunda fəda edib. Allah cəmi şəhidlərimizə rəhmət eləsin!

## Şuşaya aparan şüşə kimi Zəfər yolu: **Qarabağın açarı - Füzuli Beynəlxalq Hava Limanı!**



Beləliklə, səfərimizin ilk dayanacağı işğaldan azad edilmiş Füzuli şəhəri oldu. Şəhərə doğru buraxılış məntəqəsindən keçdikdən sonra bir daha erməni vəhşiliyinin, vandallığının şahidlərinə çevrildik.

Şəhərdən əsər-əlamət belə qalmayıb və bu gün həmin dağıntıların üzərində bir möhtəşəmliyin ucaldılması isə yalnız və yalnız bu vədi verirdi: Qarabağımızın açarı Füzuli şəhəri, rayon və kəndləri yenidən inşa olunur və qısa zamanda Qarabağımızın açarı rolunu da məhz bu məkanımız oynayacaq. Buna şübhə edənlərə isə verilən cavab Füzuli Beynəlxalq Hava Limanıdır!

Cəmi 8 aya inşa edilən və şəhərin da-



ğıntıları arasından qürurla yüksələn aeroportun möhtəşəm binası, həmçinin, Şuşaya qədər aparan şüşə kimi Zəfər yolu artıq özü-özlüyündə hər şeyi ehtiva etməkdə idi. Bu gün bu yolla Qarabağa səfərlər edən xarici qonaqlardan tutmuş hər kəsi, sadəcə, bir sual düşündürür: axı bu qədər qısa müddətdə o qədər nəhəng işləri həyata keçirmək müharibədən çıxmış Azərbaycan dövlətinə necə müyəssər oldu? Bu sualın cavabı birdir - gücü və qüdrəti ilə regionun aparıcı iqtisadiyyatına malik olması, xalq-iqtidar birliyinin mövcudluğu və ən əsası, qətiyyətli dövlət başçısının sarsılmaz iradəsi hesabına! Bu bənzərsiz üç gerçəkliyə isə hər ölkə, hər xalq sahib ola bimir, Azərbaycan bu özəlliyə, bu əsrarəngizliyə sahibdir və nəticəsi də göz önündə...

Beynəlxalq Hava Limanının ətrafını və daxilini gəzdikcə, orada aparılan işlərin sürətinə, keyfiyyətinə baxdıqca bir daha əmin oluruq ki, artıq bu dövlətin əbədi, sarsılmaz dayaqları var və bu dayaqları möhkəmləndirən Ali Şəxsiyyət - Prezident İlham Əliyev faktoru mövcuddur. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsindən Onun qətiyyəti sayəsində qalib çıxdı və bu gün Onun qətiyyəti sayəsində də torpaqlarının dirçəldilməsinə inanır, çünki bu prsosesin sürəti də belə qənaətə gəlməyə kifayət qədər zəmin yaratmaqdadır.

Hava limanı ilə tanış olduq və hədsiz qürur hissi ilə "Yolçu yolunda gərək" deyib, Şuşamıza doğru irəliləməyə davam etdik.

## Salam Şuşa!

Yolboyu Qarabağımızın valehedici, sirli təbiəti və tarixi yolçuluq xoşbəxtliyimizə işıq saçan ilıq, günəşli Qarabağ havası ciyərləri-




mizə dolduqca sanki yenidən dünyaya gəldiyimizi hiss edirdik. Həm Şuşaya doğru tələsir, həm də ara-sıra qısa dayanacaqlar edərək, o havanı doya-doya içimizə çəkirdik, amma yenə də doymurduq, inanın ki, bu belədir...

Diqqətimizi çəkən məqamlardan biri də yolboyu hərəkət edən yük maşınları idi. İnşaat materialları və s. avadanlıqlar daşıyan maşınlar Şuşaya doğru və əks istiqamətdə şütüyürlər. Həmçinin, yol kənarlarında alternativ yolların çəkilməsi prosesləri aparılır, dağlar, qayalar iri texnikalar vasitəsi ilə yarılır, gecəli-gündüzlü böyük tikinti işləri gerçəkləşdirilir. Bu mənzərələri seyr edə-edə qarşıda hələ nə qədər işlərin görüləcəyi barədə fikir mübadilələri aparırıq.

Deyirlər, söhbət yolu qısaldır və bir də gözümüzü açıb-görürük ki, Şuşamızın həndəvərindəyik. Zəfər yolunun mükəmməl inşası sayəsində əvvəlcə Daşaltıya, sonra isə çatırıq qala şəhərimizin girişinə. Hər addımda Vətən eşqi, hər addımda yurd ovqatı, hər nəzərdə müqəddəslik rəmzi - Şuşamız öz ağuşunda bizi belə qarşılayırdı, Şuşamıza verdiyimiz salam belə alınırdı.

Yoxlanış prosedurundan sonra daxil oluruq şəhərə - heyranlıqla, həsədlə, hədsiz maraqla. O yolla ki, ötən ilin noyabrında qəhrəman hərbçilərimiz görünməmiş şücaətləri ilə Şuşanı azad etməyə daxil olurdular. Biz hələ dağların, qayaların fəth olunan yerlərini demirik. Bu keçilməz sədləri insan gərək öz gözləri ilə görsün və qədim şəhərimizin fatehlərimiz, fədailərimiz tərəfindən nə qədər çətinliklə azad edilməsini təsəvvüründə canlandırsın. Şuşanın hər addımında onu mühafizə edən polis güclərimiz və hərbçilərimiz gözə dəyir, onlar xüsusi həssaslıqla, diqqətlə şəhərin mühüm yerlərini mühafizə edirlər.




Strateji və coğrafi cəhətdən çox əhəmiyyətli qala hesab edilən Şuşada payızın ilıq nəfəsi əsirdi, şəhər sanki təbiətə meydan oxuyurdu, biz orada olduğumuz müddətdə Şuşada çiskin, duman olmadı və bu da bizim işimizə xeyli yarar verdi. Çəkilişlərimizi, reportajlarımızı rahatlıqla həyata keçirdik.

## Veriləcək suallara cavablar axtardıq

Başladıq səfərimizi çəkməyə. Hər addımı çəkmək, hər addım haqqında ayrıca fikir bildirmək istəyir insan. Axı geriyə dönərkən



hər kəs bizdən soruşacaqdı ki, Şuşada nə gördünüz, necə idi, haralarında oldunuz və s.

Təbii ki, çəkiliş qrupumuzun da marağında bu suallara cavab tapmaq həvəsi var idi. Ona görə də ilk dayanacağımız yer Xan qızı Xurşudbanu Natəvanın dağıdılmış evi və evinin arxasında virane qoyulmuş qonaq evi oldu. İnanın ki, daşların dili olsaydı dil açıb düşmənə lənət oxuyardı. Böyük şairəmizin, zamanının mütəfəkkirinin vaxtilə Qafqaza, Avropaya səs salan evi uçmuşdu, xaraba qalmışdı. Axı sərsəm erməni işğalçısı nə bilə bilərdi ki, bu evin, onun sahibəsinin dəyərini?

Bir də ki, mənfur düşmən yaxşı bilirdi ki, bu şəhərdə əbədi qalmayacaq və onun sahibləri geri dönəcəklər, çox yaxşı bilirdi, ona görə də əlində olan bütün vəhşilik vasitələrini dağıdıcı maşın kimi işə salmaqla Azərbaycana məxsus şəhəri erməniləşdirməyə cəhd göstərib. Amma yenə də alınmayıb. Şuşa təkbaşına (!) 28 il boyunca yağı düşmənlə mübarizə aparıb, bacardığı qədər dayanıb.

Bu gün biz Natəvanın evinin ən azından daşlarının bir yerdə olmasına görə Allahımıza şükürlər edirik, çünki o ev yenidən öz möhtəşəmliyi ilə yüksək nöqtədən bərq vuracaq, Qarabağımıza günəş kimi doğacaq, böyük şairəmizin də ruhu şad olacaq.



Evin yaxınlığındakı Natəvan bulağı qurumamışdı, suyu axırdı, sərin, şirin və heç vaxt, heç yerdə içmədiyimiz həzin şırıltısı ilə sanki deyirdi: "Gəlin ay çoxdan gözlədiklərim insanlar, gəlin içən məni, atasına rəhmət oxuyun bu bulağı düzəltdirənin, burada 28 il "Allah", "rəhmət" sözləri işlədilməyib".



İçdik, rəhmət oxuduq, gözlərimizə işıq gəldi, nəfəsimiz genişləndi. Namaz vaxtı daxil olmuşdu. Qrupumuzla getdik Şuşamızın azad olunduğu gün minarəsinə çıxılıb azan verilən yuxarı Gövhər Ağa məscidinə, kadrlardan izlədiyimiz həmin o Allah evinə. Namazlarımızı qıldıq, dualarımızı etdik, torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin ruhlarına müqəddəs Quranın Fatihə surəsindən oxuduq, amin dedik!





Məscidin divarlarından tutmuş tavanına qədər hər yeri gavur və Allahsız düşmənin murdar izlərindən təmizlənmişdi. Mehrab tərəfdə isə Fateh Ali Baş Komandanımız İlham Əliyevin, eləcə də xanım Mehriban Əliyevanın hədiyyə etdikləri Quran kitabı qoyulmuşdu. Bundan gözəl hiss nə ola bilər?

Şuşanın möhtəşəm yaşıllıq ərazilərinin birindəki çay fasiləsindən sonrakı marşrutumuz dahi sənətkarımız Bülbülün evini ziyarət etmək oldu. Bu ev də düşmənlərimiz tərəfindən viran qoyulmuşdu, sənətkarımızın güllələnmiş büstü isə gələn xarici qonaqlar üçün nümunə olsun deyə saxlanılaraq onun



yerinə yeni büstü ucaldılmışdı.

Ev muzeyinin direktoru Fəxrəddin Hacıbəyli bizə maraqlı məlumatlardan bəhs etdi, evin yenidən ərsəyə gəlməsində Azərbay-



canın Rusiyadakı səfiri Polad Bülbüloğlunun tez-tez Şuşaya səfər etdiyini bildirdi və təmir-bərpa işləri ilə şəxsən məşğul olduğunu bildirdi.

Tarixi Gəncə qapısına getdik. Şuşa adının necə qürurla ucaldığını seyr etik və qala divarlarının daşlarına toxunmaqla onların ilıqlaşmış nəfəslərini hiss etdik. Artıq onlar soyuq, buz kimi deyildilər...

Növbəti dayanacağımız Şuşamızın aşağı məhəllələrindəki kürsülü, xarabazar qalmış həyətləri, evləri oldu. Məlum oldu ki, Şuşanı 28 il əsarətdə saxlayan işğalçılar həmin evləri elektrik naqillərinə, dam örtüklərinə, tavan və döşəmələrinə qədər söküblər. Nə deyəsən, sadəcə, düşmənə lənət və nifrət hissindən başqa heç nə!

Yeri gəlmişkən, Prezident İlham Əliyev cənabları dəfələrlə öz çıxışlarında nəinki Şuşamızda, eləcə də işğaldan azad edilmiş digər ərazilərimizdəki erməni barbarlıqlarının qeydə alınması üçün YUNESKO-ya müraciət etdiyini, lakin hələ də bu qurum təmsilçilərinin buralara gələrək tarixi, mədəni, dini irsimizə nə qədər zərərlərin vurulduğunu öyrənmir, bu çağırışlara, dəvətlərə biganə yanaşırlar. Bəllidir nəyə görə - ikili stan-



dartlar reallığı bu gün də təəssüf ki, özünü göstərməkdədir!

Sonrakı çəkilişlər Qazançı kilsəsində və s. tarixi memarlıq abidələrində aparıldı. Lakin ən önəmlisi budur ki, bu gün Şuşamızda iş qaynayır və abadlıq işləri davamlı prsoes olaraq həyata keçirilir.

Biz isə bu hisslərimizlə yolumuzu salırıq Cıdır düzünə. Bəli, ölkəmizin ən gözəl və cənnətməkan yerinə. Artıq ötən bir ilə yaxın müddət ərzində burada düşmənin murdar tapdağından əsər-əlamət belə qalmayıb. Daha buralarda nə Paşinyan yallı gedir, nə də digərlər işğalçılar saxta medallarını taxıb, danqa-durunqla ortalarda atlanıb-düşmürlər. Cıdır düzündə Azərbaycan mehi əsir. Möhtəşəm dağların qoynunda, məğrur qayaların döşündə bənzərsiz yaşıl rəngli ot örtüyü, saf hava bizi sanki bihuş edir. Düzdür, artıq hava da yavaş-yavaş qaralmağa, hətta soyumağa başlayır, amma bu da bizi usandırmır, Şuşa bizi maqnit kimi özünə çəkməkdə davam edir.

Gedirik Cıdır düzünün ən yüksək məkanından bizi həsrətlə gözləyən digər şəhərimizə - Xankəndiyə baxmağa. Axı bayaq da qeyd etmişdim ki, bəxtimizdən Şuşa həmin gün dumansız-çənsiz idi və biz Azərbaycanın üçrəngli bayrağının qarşısındakı yüksəklikdən Xankəndini seyr etdik, şəhər ayaqla-



rımız altında idi, işıqları yanırdı, bizi çağırırdı. Və kimsənin şübhəsi də yoxdur ki, biz Xankəndinin çağırışını da səssiz qoymayacağıq, bir gün, tezliklə ona da salam verib bağrımıza basacağıq.

Son ziyarət məkanımız Vaqifin yenidən bərpa olunmuş, əzmlə göylərə yüksələn məqbərəsi oldu. Dualar oxuyub, böyük şairimizə Allahdan rəhmət dilədik. Artıq hava tamamilə qaralmışdı və Şuşada saatlar 20:00-a doğru irəliləyirdi, komendant saatına az qalmışdı. Bizə bildirmişdilər ki, axşam saat 8-dən sonra şəhərin küçələrində gəzmək yasaqdır, çünki düşmən hələ də öz mənfur xislətindən əl çəkməyə bilər. Ehtiyat isə igidin yaraşığıdır, igidlərimiz Şuşamızı göz bəbəyi kimi qoruyurlar. Bu minvalla yavaş-yavaş Şuşamızla xudahafizləşib, düzəlirik yola - Bakıya doğru. Çünki fikirlərimizi, düşüncələrimizi bölüşəcək o qədər insanlar, dostlar, qohumlar var idi ki...

***Rövşən RƏSULOV***

***P.S. Şuşaya "Biz bir də gələcəyik, əziz Şuşa!" deyib bu ümidlə də tarixi səfərimizi yekunlaşdırdıq, həqiqətən də, bu, bir tarixi səfər kimi həyatımızın silinməyən dəftərinə yazılmış bir hadisə idi...***

***P.P.S. Şuşa səfərimizlə bağlı SƏS TV-də geniş reportajımızı təqdim edəcəyik.***









# Qızlar niyə evlilikdən qorxur?



**Qız dünyaya gələn kimi cehiz hazırlıqları başlayır. İllərdir "ay, özünü qoru, oğlanlarla gəzib tozma, adın çıxmasın" deyə böyüdülən qızın başı, "Get, birini tap və evlən" sözləri ilə yeyilir. Bunların heç biri alınmadıqda isə görücü üsuluna müraciət olunur ki, təki qız evdə qalmasın.**

Çünki bizdə düşünülür ki, evlənmək uğurun ölçüsüdür. Bu, qızın layiqli, vicdanlı, seçilən bir insan olduğunu göstərir. Biz düşünürük ki, bir qızın evlənmək istəməməsi normal deyil. Kişi evlənmək istəməyə bilər. O zaman adı "subay" olur. Amma qız evlənməsə, daha doğrusu, evlənə bilməsə, öz seçimini edə bilməz. Mütləq "evdə qaldı" damğası vurulur.

Günümüzdə "evdə qalmaq", sadəcə, qızlara şamil olunur. Bir az yaşı keçən kimi "evdə qalmısan" kimi mənfi fikirlər səsləndirilir. Gec evlənmək səni bəyənən birinin olmadığını göstərmir. Bu, ondan irəli gəlir ki, ola bilər xanım ona elçi çıxan şəxsləri bəyənməsin və yaxud da bu məsələdə çox seçici olsun.

Bəzi xanımlarda isə yaş irəlilədikcə və ona elçi çıxmadıqca panika yaranır. Onlar daim qorxu içində olurlar. Bu, onların ailəsindən də asılıdır. Elə ana-ata var ki, qızını evlənmək üçün məcbur edir. Onun "evdə qalma"sının fikrini çəkir və yaxud da narahat olur. Yəni, bəzi valideynlər bu hallardan utanır ki, "bəs, mənim qızımı alan yoxdur".



Oğlan olmağın avantajı budur ki, onlar bu məsələlərdə qızlar qədər sıxışdırılmır. Onların üzərinə bu qədər gedilmir. Günümüzdə kifayət qədər 40-45 yaşlı kişilər var ki, evlənmək üçün 20-21 yaşlı qız axtarışındadır. Qızın yaşı bir az keçən kimi, sanki onu bəyənmirlər, istəmirlər kimi bir düşüncə var.

Sosial təzyiq belə olduqda, ən müasir yeniyetmə qızlar belə erkən yaşlarında evdə qalmaqdan qorxmağa başlayırlar. Dili istədiyi qədər başqa şey söyləsin, ürəyi başqa bir şeyi pıçıldasın. Mütləq evlənəcək Evlənməsə, deyəcəklər ki, "bax, filankəsin qızı da getdi, amma sən qaldın".

Bu qadınların seçiciliyini sıxışdıran və onları "təki ər olsun, palçıqdan olsa da olar" deməyə məcbur edən cəmiyyətin təzyiqidir. Bir



çox qadın, evdə qalmaq qorxusundan "mən bu adamla yola gedərəmmi, yoxsa getmərəmmi?" demədən evlənmək qərarına gəlir. "Bu adamı həqiqətən sevirəmmi?", "Sevgisiz başlayan bir evliliyin xoşbəxt davam etməsi necə mümkündür?" suallarını qızlar özlərinə vermir.

Kişilər də axmaq deyillər. Sizcə, bu vəziyyəti hiss etmirlərmi? Gənc qızlar şikayət edir ki, "Aylardır bir yerdəyik, hələ evlənmək barədə danışmayıb. Bu məsələni açdıqda isə "evlənməkdən qorxuram" deyirlər və "bu münasibət hara qədər davam edəcək?" deyə soruşurlar. Məsələni bir az araşdıranda, bəli, ətrafındakı pis evliliklərdən qorxan kişilər var, evlilikdə bir problem varsa, boşanmağı dünyanın sonu olaraq gördükləri üçün evlilikdən uzaq hiss edən kişilər var. Ancaq kişiləri ən çox qorxudan şey tələyə düşməkdir. Qadının onu həqiqətən sevdiyinə inanmayan kişi, onun dərdinin özü olduğunu yox, yalnız evlənmək olduğunu düşünür, təbii olaraq daha çox qorxur.



Deyək ki, kişi bu vəziyyətdən ayılmadı, qadını çox sevdi və evləndi. Öz qərarından əmin olmayan bir qadın, sevgisindən o qədər də əmin olmayan bir kişiyə nə qədər dözəcək? Evlilik oyun-oyuncaq və toz-pəmbə həyat deyil. Yaxşı günləri də var, pis günləri də. Mübarizələri var, çətinlikləri var. Pul xərcləmə vərdişlərinizdən ailələrlə əlaqələr məsafəsinə, uşaq tərbiyə üsullarınızdakı fərqdən evdəki iş bölgüsünə qədər hər şey evlilikdə problem yarada bilər. Sevgi güclü olacaq ki, bu çətinliklərin öhdəsindən gəlmək üçün gücünüz olsun. Əks təqdirdə, "həvəsim yoxdur, imtina etdim, oynamıram" demək uşaq işidir.

Cütlüklərin yaxşı münasibət qurduqdan sonra evlənməyə qərar vermələri asan görünsə də, sevgi və ehtirasın şiddəti ilə evliliyə hazırlıq və evlilikdən sonra uyğunlaşma prosesi bəzən çətin ola bilər. Evlənməyə qərar verən cütlüklərin bəzi məqamlara diqqət etmələri lazımdır.

Evlilikdə düşündüyünüzdən daha çox məsələ gündəmə gəlir.



Evlilik qərarı ilə ailələrlə görüşmək, mərasim təşkil etmək, paltar alış-verişi və yeni ev qurmaq kimi məsələlərdə cütlüklər evlilik anlayışından uzaqlaşırlar. Vəziyyəti hər şey bitdikdən sonra başa düşürlər, toy tamamlanır və eyni evdədirlər.

İki insan eyni evi, eyni həyatı paylaşmağa və yepyeni bir həyata başlamağa başladıqda, bəzən bu cütlüklərdə panikaya səbəb ola bilər. Əslində tərəflər "Nə etdim?" deyə hətta özünə sual da verir. Bir çox cütlüyün evləndikdən sonra yaşadıqları uyğunlaşma prosesi mütəxəssislər tərəfindən normal qəbul edilir.

Münasibət əsnasında bir çox cütlük ayrı evlərdə yaşayır və tərəflər bir-birinin ev vəziyyətinə şahid ola bilməzlər. Nəticədə, cütlüklər evləndikdən sonra eyni evə girəndə həm yeni evə uyğunlaşmaqda, həm də birlikdə yaşamaqda çətinlik çəkirlər.

Evlənməyə alışmaqda çətinlik çəkən insanlar depressiya, çaxnaşma, ağlama, iştahsızlıq, cinsi istəksizlik və peşmançılıq kimi problemlərlə qarşılaşa bilərlər. Bütün bunlar cütlüklər arasındakı ünsiyyəti pozur.

SİA məsələ ilə bağlı araşdırma apararaq psixoloq və sosioloqların fikirlərini öyrənib.

**Sosioloq Rəşad Əsgərov:** "Xüsusilə gənclər, yəni qadın cinsinə mənsub olanlar arasında belə bir fikir yaranmışdı ki, əgər onlar oxusalar, maariflənsələr müəyyən müddətdən sonra evlənməyə, nikaha girməyə özlərinə münasib adam tapa bilməyəcəklər və yaxud da ki, nikaha girmək arzusunda olduğu insanlar həmin dövrdə artıq evlənəcək, ailə yiyəsi olacaq və bunlar müəyyən qədər problemlərlə üzləşəcək.

Burada da o problemin həlli yolunda ya ikinci evliliyə cəhd edənlərlə evlənmək, yaxud da ki, müəyyən qədər artıq seçmək şansının olmaması və s. bu kimi məsələlər gündəmə gəlirdi.

Amma son dövrlərin statistikasına baxdıqda isə, bu məsələlər artıq o qədər də trendə çevrilmir. Çünki indi əksər insanlar xüsusilə də təhsil müəssisələrinin, həm özəl, həm dövlət təhsil müəssisələrinin, həm də orta-ixtisas peşə məktəblərinin sayının artması valideynlərin uşaqlarının evləndirəndən sonra maarifləndirib, oxudub, müəyyən peşə, ixtisas sahəsinə yiyələndikdən sonra öz ailə-məi-



şət məsələlərini, nikah məsələsini həll etməyə yönəldir. Bu, belə olan halda da həm oğlanlar, həm də qızlar arasında nikah yaşında müəyyən qədər artım baş verir, yəni, əvvəlki dövrdə tutaq ki, 15-16 yaşında, hətta qanunvericiliyin icazə vermədiyi halda belə nikaha cəhd edənlər çox idisə, bu məsələlərdə müəyyən qədər yaş ortamında orta göstəricilərdə artım baş verdi.

İkinci bir tərəfdən isə nikah haqqında qanunvericiliyə görə 18 yaşın həm hər iki cinsin nümayəndələri üçün evlilik yaşı kimi qəbul olunması və dövlətin hüquq-mühafizə orqanlarında bu yaşdan aşağı evliliyə cəhd edənlər və yaxud da nikaha girənlərə qarşı mübarizə tədbirlərinin genişləndirilməsi, xüsusilə də, azyaşlıların nikahı ilə bağlı valideynlərinin inzibati və cinayət məsuliyyətinə cəlb edilməsi məsələlərinin daha geniş yayılması bu sahədə olan boşluğu doldurdu.

İndi əvvəlki dövrdən fərqli olaraq tutaq ki, rayon yerlərində, hətta uzaq kənd yerlərində belə 20-21-22 yaşında ailə qurmayan qızlara evdə qalmış kimi və yaxud da evdə oturmuş kimi sözlər deyilmir. Çünki nikah yaşı yuxarı qalxdıqda tutaq ki, 23-24-25 yaşında nikaha girənlərin sayı dinamikasında son illərin göstəricisində daha çox artım var. Ona görə də artıq onlara normal yanaşma var. Amma 20-25 il bundan əvvəllə biz müqayisə etsək, bəli, onda artıq kənd yerində qız uşağı 19-20 yaşda ailə qurmayıbsa, onu insanlar nəysə qəribə baxışlarla ictimai qınaqla yanaşırdılar və evdə qalmış kimi və yaxud da "nə vaxt evlənəcəksən?" "sən bu yaşa qədər ailə qurmamısansa, ərə getməmisənsə sənin ərə getmək və yaxud ailə qurmaq, nikaha girmək şansını itirirsən" kimi sözlər deyilirdi.

İkinci bir məsələ oğlanlara münasibətdə daha çox özünü göstərirdi. Xüsusilə də, toy mərasimlərində yaşı 25-26, hətta 27 yaşında olan insanlara el deyimi ilə desək, tay-tuşları, yaxın ətrafı nə vaxt tərpənirsən. Sanki tərpənməz vəziyyətdə qalmısan, tərpənmək burda adətən, nikaha girmək kimi, nikah prosesinə qoşulmaq kimi işlənilir. Digər bir tərəfdən ictimai qınaq da vardır ki, əgər 25-26-27 yaşa qədər evlənməyibsə, yəni, əsas orta göstəricilər baxımından biz bunu deyirik və orda belə bir yanaşma yaranırdı ki, guya problem var, nə isə xəstəlik var, nə isə başqa bir hal var. Amma son dövrlər o məsələlər o qədər də gündəmdə deyil. Həm oğlanların nikah yaşında, həm qızların nikah yaşında o deyilən yaş müstəvisi, yaş dərəcələri artmışdır və artıq hətta müəyyən qədər karyera qurub 26-27-28 yaşında nikaha girən qızların sayında da müəyyən qədər artım var və aydın məsələdir ki, həmin yaşda olanlar, xüsusilə də, ziyalı təbəqəsi ilə oxumuş və yaxud da ki, müəyyən qədər peşə və ixtisaslara yiyələnmiş insanlarla ailə qurmağa üstünlük verirlər. Düşünürəm ki, onların ailələri də daha çox uğurlu olur".

**Psixoloq Vüsalə Əmiraslanova:** "Əslində, qızların gec ailə qurmasının səbəbi öz yaşıdları ilə bunun çox müzakirə olunması, tez ailə quran, erkən nikahda olan qızlarda böyük problemlərin olması, ailələrinin dağılması, ailədə olan şiddət, zorakılıq və ümumiyyətlə, sosial şəbəkədəki paylaşımlar bunların hamısı qızlarımıza təsir edir.

Əgər onlar öz analarını tam xoşbəxt görə bilmirsə, o zaman o da ailə qurmaqdan qorxur və yaxud da özünü təhsilə həsr etmək istəyirsə, təhsillə məşğul olmaq istəyir. Ümumiyyətlə, hər şeydə



kompromis olmalıdır. Valideynlər də uşağın birinci oxumaq, gəzmək, başqa tələbatlarını ödədikdən sonra ailə qurdura bilərlər. Çünki ailə qurub ailəsinin dağılmasını görməkdənsə, düzgün vaxtında və daha xoşbəxt ailəsinin olması daha yaxşıdır.

Əslində, heç kim heç kimə evdə qalmış damğasını vura bilməz. Çünki bu şəxsi seçimdir, kim istəyir özünü karyerasına, kim istəyir ailəsinə həsr edir. Amma biz bir cəmiyyət olaraq milli dəyərlərimizi qoruyuruq və insanlara təbliğ ediirik ki, ailəniz olmalıdır. Çünki hər bir xanım ana olmalı, hər bir xanımın gözəl bir ailəsi olmalıdır. Bunun üçün uşağımıza birinci təhsili, sonra ümumi psixoloji cəhətdən yaxşı təsir etməliyik ki, özü ailə qurmaq qərarına gəlsin".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Koronavirusla vidalaşmağın

## ən optimal yolu - vaksinasiya

"Ölkədə bu gün son sutkada koronavirus (COVID-19) əleyhinə 29 559 vaksin vurulub". Bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib. Məlumata görə, bir gündə birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 17 011, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 12 548 nəfərdir. Ölkədə vurulan vaksinlərin ümumi sayı 9 383 303, birinci mərhələ üzrə vaksinasiya olunanların ümumi sayı 5 060 158, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı isə 4 323 145 təşkil edir. Sağlamlığın təmin olunması üçün əsasən 3 əsas şərtə - tibbi maska taxmalı, məsafə saxlanılmalı və vaksiyasi olunmalıdır. Bu gün müasir texnologiyanın imkanlarından istifadə edərək qısa zaman kəsiyində vaksinlər hazırlanıb. Artıq dünyada ayrı-ayrı şirkətlərin vaksinləri hazırlanır və bu gün uğurla tətbiq olunur. Koronavirusa yoluxanların və ölənlərin sayı həddindən artıq ola bilərdi. Amma vaksinasiya bu prosesin qarşısını alır, virusun yüngül keçməsinə kömək edir. Bu uğurlu nəticə, məhz Azərbaycanda koronavirusa qarşı aparılan mübarizə çərçivəsində həyata keçirilən sistemli tədbirlər, vətəndaşların məsuliyyəti və onların mövcud qaydalara əməl etmələri müsbət nəticələrə gətirib çıxarıb.

### Azərbaycan MDB-də "COVID-19" əleyhinə vaksinasiya səviyyəsinə görə liderdir

Son aylar Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə koronavirus (COVID-19) pandemiyasına qarşı genişmiqyaslı tədbirlər görülür, məşğulluğa və sosial rifaha dəstək məqsədilə fəal siyasət aparılır. Və son həftələr ölkədə karantin müddətinin uzadılmasına ehtiyacın olması da, məhz dövlətin öz vətəndaşının sağlamlığını hər şeydən üstün tutmasının reallığının təsdiq edən amildir. Məhz bu gün Ümumdünya Səhiyyə Təşkilatı Prezident İlham Əliyevin liderliyini alqışlayır. Çünki bu, bir həqiqətdir ki, koronavirus pandemiyası başlanandan etibarən Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti tərəfindən çox ciddi tədbirlər görülməklə yanaşı, regional və qlobal səviyyədə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır.

### TƏBİB-dən karantin rejimi ilə bağlı açıqlama

"Son günlər koronavirusa yoluxma sayında artım var". Bunu TƏBİB-in xəstəliklərin profilaktikası və kontrolu departamentinin rəhbəri Yaqut Qarayeva deyib. O bildirib ki, bu, gözlənilən prosesdir: "Mərhələli olaraq sərtləşmə rejimindən çıxdıq. Kafe-restoranlar, məktəblər açıldı. Bu artımda hər birimizin rolu var". Professor Adil Qeybulla bildirib ki, COVID üçün istənilən əks-göstəriciləri həkim müəyyən edir, istənilən halda bunu vətəndaş müəyyən edə bilməz. O, qeyd edir əgər pasient narahatdırsa, o, peyvənd otağında təlimatlandırılır: "Astma, ağciyər xəstəlikləri, bütün bunlar hamısı peyvənd vurdurmağa göstərişdilər. Çünki onlar xəstələndikləri halda bu xəstəliyi çox ağır keçirə bilərlər. Bütövlükdə əks göstərişlər komissiya tərəfindən müəyyən edilir. Vaksindən imtina vermək üçün əsas lazımdır. Xəstəlik keçirən adam isə 6 ay müddətində vaksinasiya oluna bilməz, 6 aydan sonra oluna bilər".

A.Qeybulla insanları bu reallıqları nəzərə almağa çağırıb: "Pandemiyanın başlanğıcında bəzi insanların sürətlə yayılan infeksiyanı "yalan", "boş şey", "insanları məhv etmək metodu" və s. kimi primitiv səviyyədə cəfəng, əsassız və məntiqsiz təbliğatlarını yada salın. Təəssüflə qeyd etmək yerinə düşərdi ki, sonradan həmin infodemiya (dezinformasiya) hörgütünün bəzi üzvləri özləri də xəstələndilər, onların içərisində həyatlarını itirənlər də az olmadı. Ona görə də qətiyyən vaksin tərəddüdünə qoşulmayın, bu kampaniyanı bilərəkdən yayan və ya səmimi yanılanların təbliğatına uymayın. Peyvənd olunun, bundan qətiyyən çəkinməyin".

### Adil Allahverdiyev: "Çox da təşvişə düşəcək bir şey yoxdur, çünki "Delta" COVID-19-un mutasiyaya uğramış variantıdır"

V.Y.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun direktoru Adil Allahverdiyev bildirir ki, vaksinasiya olunmuş şəxslər karantin qaydalarına yenə də əməl etməlidirlər: "Son vaxtlar xüsusilə İngiltərədə COVID-19-un "Delta" variantına aid olan AY.4.2 ştammı aşkarlandı. "Delta ştammı"nın 45-ə yaxın alt tipi var, bunlardan biri AY.4.2-dir. "Delta ştammı"nda hansı xüsusiyyətlər varsa, bu mutasiyada da eyni xüsusiyyətləri görürük. Buna görə çox da təşvişə düşəcək bir şey yoxdur, çünki "Delta" COVID-19-un mutasiyaya uğramış variantıdır. Virus mutasiyaya uğradıqca onların yoluxduruculuq qabiliyyəti də artır. COVID-19 yeni aşkarlanandakı ilə müqayisədə 50-60 dəfə sürətlə yayılmağa başlayıb. Yeni mutasiya da sürətlə yayılır. Yeni mutasiyanın sürətli yayılması ilə bağlı məlumatlar var, amma xəstəliyin ağır gedişatı və ya ölümlə nəticələnməsi ilə bağlı hələ ki, dəqiq məlumat yoxdur".



Adil Allahverdiyevin sözlərinə görə, iki doza qəbul etmiş bəzi şəxslərə 3-cü doza vaksinin vurulmasına ehtiyac var. Çünki 5-6 aydan sonra orqanizmdə COVID-19-a qarşı meydana gəlmiş antitellərin miqdarı aşağı düşə bilər. Antitellərin miqdarı azalmasın deyə 3-cü doza vaksin vurulur. Hazırkı durumda 3-cü doza peyvəndin vurulması məqsədəuyğundur.Professor Ümumdünya Səhiyyə Təşkilatının, eyni zamanda digər səhiyyə qurumlarının da uşaqların vaksinasiyası ilə bağlı göstərişlərinə münasibətində bildirib ki, ayrı-ayrı ölkələrdə uşaqların vaksinasiyası sınaqdan keçirilib: "Uşaqların da COVID-19 əleyhinə peyvənd olunması məqsədəuyğundur, çünki uşaqlarda immun sistem böyüklərə nisbətən aktiv olmaya bilir. Vaksinasiyanın uşaqlarda tətbiq olunduğu ölkələrdə hər hansı ciddi fəsadlar olmadığı ortaya çıxıb. Hətta uşaqlarda böyüklərə nisbətən yan təsirlər qabarıq şəkildə özünü göstərməyib. Bu, Azərbaycanın verdiyi bir qərar deyil, ÜST-ün tövsiyələrinə əsasən həyata keçirilir".



Bir sözlə, bütün bunlar Prezident İlham Əliyevin dünya səviyyəli uzaqgörən, müdrik liderlik qabiliyyətinə malik olmasının bariz göstəricisidir.

Göründüyü kimi, Azərbaycan Prezidentinin qlobal liderlik missiyası beynəlxalq müstəvidə pandemiya ilə mübarizəyə birbaşa təkan verməyə istiqamətlənib. Bu missiya qlobal bəladan bütün ölkələrin minimum itkilərlə çıxması üçün dəqiq strategiya müəyyən edir. Ona görə də Prezident İlham Əliyevin bu istiqamətdə atdığı bütün addımlar, gördüyü işlər beynəlxalq səviyyədə təqdir olunur və Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən də nümunə kimi göstərilir.

Bir sözlə, koronavirusla bağlı situasiya hökumətin tam nəzarətindədir. Ola bilsin dövlət xalqın təhlükəsizliyi üçün bir qədər də zəruri və sərt addımlar atsın. Amma onu bilməliyik ki, bütün atılan addımlar Azərbaycan insanı, onun sağlamlığı və təhlükəsizliyi üçündür!

**RƏFİQƏ HÜSEYNOVA**

---

# "Ermənilər dərk ediblər ki, ərazi bütövlüyümüzü tanımaqdan başqa yolları yoxdur"

"Azərbaycan və Ermənistan liderlərinin noyabrın ilk ongünlüyündə keçiriləcək görüşü barədə Kremlə yaxın informasiya agentliyi məlumat yayıb. Erməni müxalifətinin dərhal həmin günlərdə mitinq keçirmək planını elan etməsi Ermənistan xarici işlər nazirliyinin sözçüsü V.Unanyanı məcbur etdi ki, bu xəbəri təkzib etsin və mətbuat katibi bəyan etdi ki, indiki zamanda belə bir görüş planlaşdırılmır. Ona dəstək verməyə çalışan Rusiya prezidentinin mətbuat katibi D.Peskov da bildirdi ki, belə bir sammitin keçirilməsi barədə razılıq olarsa, mütləq məlumat veriləcək". Bunu SİA-ya açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.

Onun sözlərinə görə, iki ölkə təmsilçilərinin verdikləri "təkzib"göstərdi ki, belə bir görüşün keçirilməsi barədə razılaşma var və həmin sammitdə mühüm razılaşmaların olması mümkündür: "İlk növbədə, iki ölkə arasında sərhədlərin müəyyənləşməsi barədə razılaşmanın imzalanmasına heç bir maneçilik yoxdur. Valday forumundakı çıxışında bu məsələyə toxunan V.Putin heç bir kənar qüvvəyə ehtiyac olmadığını və bu məsələni Azərbaycan və Ermənistanın Rusiyanın vasitəçiliyi ilə asanlıqla həll edəcəyini bildirdi. Bu məsələni Rusiyada saxlanılan SSRİ dövrünün xəritələri əsasında həll etməyin mümkünlüyündən danışan V.Putin problemin təcili həll olunmasında maraqlı olduqlarını birmənalı şəkildə bəyan etdi və regiona müdaxilə etməyə çalışan güc mərkəzlərinə-həm ABŞ-a, həm də Avropa birliyinə açıq şəkildə "sizə ehtiyacımız yoxdur"-dedi. Rusiyanın nikbinliyi təbii ki, əsassız deyil. Azərbaycan dəfələrlə bu problemin həllinə hazır olduğunu və hər iki ölkənin ərazi bütövlüyünün tanınması şərtilə sərhədlərin delimitasiya və demarkasiyasına heç bir maneənin olmadığını bəyan edib. Ancaq məhz bu məsələ uzun müddət Ermənistan üçün problem olub və N.Paşinyan hakimiyyəti Azərbaycanın ərazi bütövlüyünü tanımamaq üçün əlindən gələni edib. Ancaq ermənilər də nəhayət dərk ediblər ki, ərazi bütövlüyümüzü tanımaqdan başqa yolları yoxdur".

A.Səmədov onu da bildirib ki,



bütün cəhdlərə baxmayaraq Ermənistan hakimiyyəti nəqliyyat kommunikasiyalarının, ilk növbədə "Zəngəzur dəhlizi"nin açılması məsələsində də geriyə addım atmaq məcburiyyətində qaldı və bu barədə N.Paşinyan MDB sammitindəki çıxışında birmənalı bəyanat verdi: "Güman edirəm ki, Moskvada keçiriləcək görüşdə həm sərhədlərin müəyyənləşməsi, həm də kommunikasiyaların açılması istiqamətində real addımların atılmasına heç nə mane ola bilməyəcək. Bu sənədlərin imzalanması bizə hər iki respublika, ilk növbədə, Azərbaycan üçün müstəsna əhəmiyyətə malik olan "sülh sazişi"ni imzalamağa imkan verəcək və yalnız bundan sonra regionda dayanıqlı inkişafı təmin etmək mümkün olacaq. Sammitin elan olunduğu kimi noyabrın 9-da, yoxsa bir neçə gün tez və ya gec baş tutması isə həlledici əhəmiyyət daşımır".

**Gülyanə**

# Vətən öz igid oğullarını unutmur!

## Qobustanda şəhid Sərxan Hacıyevin məzarı ziyarət olunub







Qobustan rayon icra hakimiyyətinin başçısı Adil Məmmədov,Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Füzuli Gülaliyev, hüquq-mühafizə orqanlarının rəhbərliyi və rayon ictimaiyyətinin nümayəndələri, Qobustan şəhərindən ”Vətən uğrunda”, ”Cəsur döyüşçü” və ”Füzulinin azad olunmasına görə” medalları ilə təltif olunmuş Şəhid Hacıyev Sərxan Eldar oğlunun məzarını ziyarət etmişlər. Şəhidin məzarı önünə tər gül dəstələri düzüb, əziz xatirəsinə ehtiramlarını bildirib, ruhuna dualar oxunmuşdur.

Görüşdə şəhidin valideynləri oğlunun hərbi xidmət zamanı göstərdiyi qəhrəmanlıqlardan danışıblar. Onun Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə ölümündən sonra ”Vətən uğrunda”,” Cəsur döyüşçü” və ” Füzulinin azad olunmasına görə” medallarına layiq görüldüyünü qeyd ediblər. Şəhidin valideynləri göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildiriblər.

*Rəfiqə*



## YAP Qazax rayon təşkilatının fəalları şəhidin ildönümü ilə əlaqədar məzarını ziyarət ediblər

25 oktyabr 2021-ci il tarixdə YAP Qazax rayon təşkilatının fəalları və rayon ictimaiyyətinin nümayəndələri Vətən müharibəsi şəhidi Əfəndiyev Adil Qədir oğlunun şəhid olmasının ildönümü ilə əlaqədar məzarını ziyarət ediblər. Ziyarətçilər şəhidin ruhuna dualar oxumuş və məzarının üstünə tər gül dəstələri düzmüşlər. Daha sonra YAP Qazax rayon təşkilatının fəalları 44 günlük Vətən müharibəsində qəhrəmanlıq salnaməsi yazan şəhidin ailəsi ilə görüşmüşlər.

*Rəfiqə*

## YAP Şamaxı rayon təşkilatının əməkdaşları şəhidin ildönümü mərasimində iştirak ediblər



Şamaxı RİHB-sı Tahir Məmmədov, millət vəkili Tamam Cəfərova, YAP Şamaxı rayon təşkilatının əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları İkinci Vətən Müharibəsində şəhidlik zirvəsinə ucalmış Atakişiyev Tərlan Dərgah oğlunun və Kərimov Haqverdi Sadiq oğlunun şəhid olmasının ildönümü ilə əlaqədar təşkil edilmiş il mərasimində iştirak etmişlər.



Həmçinin, şəhidin məzarı ziyarət edilərək önünə gül dəstələri düzülüb, ruhlarına dualar oxunub. Sonra tədbir iştirakçıları Ovculu kəndində şəhid MAXE Kərimov Haqverdi Sadiq oğlunun adının əbədiləşməsi məqsədilə yeni inşa olunmuş bulağın açılışında iştirak etmişlər.

Tədbirdə Şamaxı RİHB-sı Tahir Məmmədov çıxış edərək qeyd etmişdir ki, Vətənin cəsur, qorxmaz, düşmənə aman verməyən igid oğulları 30 ilə yaxın yağı tapdağı altında inləyən torpaqlarımızı əzəli sahibinə qaytarmaqla həm də Azərbaycan xalqının üzülmüş ümidini, namusunu, qeyrətini özünə qaytardılar. Alnımızdakı ləkəni sildilər və qisas qiyamətə qalmadı, Azərbaycan xalqının qisası düşməndən artıqlaması ilə alındı.

*R. Kamalqızı*

## Zərdabda şəhid Faiq Vəlizadənin ildönümü qeyd olunub





Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Faiq Bayraməli oğlu Vəlizadənin ildönümü ilə əlaqədar olaraq, Zərdab rayon Alıcanlı kəndində anım mərasimi keçirilib. Tədbirdə Zərdab rayon icra hakimiyyətinin başçısı Mərdan Camalzadə, millət vəkili Jalə Əliyeva, YAP Zərdab rayon təşkilatının sədri səlahiyyətlərini icra edən Pərvin Mahmudova və bir qrup fəal YAP üzvləri, rayon icra hakimiyyəti aparatının nümayəndələri, Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri, DTX-nin Zərdab rayon şöbəsinin rəisi, SHXÇDX-nin Zərdab rayon şöbəsinin rəisi, Gənclər və İdman idarəsinin rəisi və Təhsil şöbəsinin müdiri iştirak ediblər. Əvvəlcə şəhidin məzarı ziyarət olunaraq əziz xatirəsi ehtiramla yad olunub, məzarı üzərinə gül-çiçək dəstələri düzülüb, ruhuna dualar oxunub.

Daha sonra iştirakçılar şəhidin doğulub boya-başa çatdığı evində olmuş, vəfatının ildönümündə iştirak etmiş, ailə üzvləri və yaxınları ilə görüşmüşlər. Mərasimdə qəhrəman şəhidimizin döyüş yolu barədə söhbət açılmış, valideynlərinə başsağlığı verilmişdir. RİH-nin başçısı Mərdan Camalzadə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi Zəfərdən bəhs edib. O, ölkəmizin ərazi bütövlüyünün təmin olunması uğrunda hərbi əməliyyatlarda Faiq kimi igid əsgər və zabitlərimizin müharibə dövründə fədakarlıq göstərərək, qələbəmizin əldə olunmasına öz layiqli töhfələrini verdiyini və bunun hər birimizdə sonsuz qürur hissi doğurduğunu qeyd edib.

Şəhidimizin ailə üzvləri onlara göstərilən diqqət və qayğıya görə, ölkə başçısı Cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini bildiriblər.

*Zümrüd BAYRAMOVA*

## Vətən müharibəsinin iki şəhidinin ildönümü Ağdaş rayonunda qeyd olunub

Vətən müharibəsində şəhadətə yüksəlmiş Ağdaş rayonunun iki şəhidinin - Maxsudov Bəxtiyar Mansur oğlunun və Məmmədov Elvin Eldəniz oğlunun ildönümü qeyd olunub. Bununla əlaqədar şəhidlərin doğulub-böyüdüyü və ailələrinin yaşadığı Tofiqi kəndində və Ağdaş şəhərində mərasimlər keçirilmişdir.

Mərasimlərdə Yeni Azərbayan Pariyası İdarə Heyətinin üzvü, YAP Ağdaş rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən, millət vəkili Cavid Osmanov və partiya fəalları, icra hakimiyyətinin və rayon ictimaiyyətinin nümayəndələri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələrinin üzvləri, qazilər, müharibə iştirakçıları iştirak etmişlər. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirələri ehtiramla anılmış, ruhlarına dualar oxunmuş, onların döyüş yolu barədə söhbət açılmış, valideynlərinə başsağlığı verilmişdir.



Məmmədov Elvin Eldəniz oğlu
25.06.2001 - 22.10.2020
Ağdaş şəhəri Nəsimi küç.

Maxsudov Bəxtiyar Mansur oğlu 17 oktyabr 1997-ci ildə Ağdaş rayonunun Tofiqi kəndində anadan olmuşdur. Bəxtiyar Maxsudov Aprel döyüşlərinin də iştirakçısı olmuşdur. Vətən müharibəsi başlayanda təlim toplanışında olan Bəxtiyar Maxsudov Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda başlayan döyüşlərdə iştirak etmiş, Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə şəhid olmuşdur. Oktyabrın 24-də doğulduğu Tofiqi kəndinin qəbiristanlığında dəfn olunmuşdur. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan Cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra ”Vətən uğrunda”, ”Cəsur döyüşçü” və ”Suqovuşanın azad olunmasına görə” medalları ilə təltif olunmuşdur.

Məmmədov Elvin Eldəniz oğlu 25 iyunt 2001-ci ildə Ağdaş şəhərində anadan olmuşdur. Vətən müharibəsi başlananda həqiqi hərbi xidmətdə olan Elvin Məmmədov Azərbaycan Ordusunun əsgəri kimi Füzuli-Cəbrayıl istiqamətində gedən hərbi əməliyyatlarda iştirak etmiş və şəhid olmuşdur. O, oktyabrın 24-də Ağdaş şəhərinin Padar qəbiristanlığında dəfn olunmuşdur. Ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq Sərəncamları ilə ölümündən sonra ”Vətən uğrunda” və ”Cəsur döyüşçü” medalları ilə təltif olunmuşdur.

*Zümrüd BAYRAMOVA*

# Erməni mətbuatının gündəmi: Dəhlizin açılması, peşəkar ordu və səfirin İsfahan səfəri

**Bu gün Ermənistanın siyasi, iqtisadi palitrası, ölkə içində və kənarda baş verənlər onu deməyə əsas verir ki, gələcəkdə çox şey dəyişə bilər. Əlbəttə, bütün bunlar ehtimallardır. Daxili siyasətdə keçmiş hakimiyyət mənsubları ilə indikilərin "bir-birinin kitabını oxumamaları" ermənilər üçün yaxşı heç nə vəd etmir.**





Bu gün Ermənistan parlamentində 2022-ci il üçün büdcə layihəsinin müzakirəsi zamanı çıxış edən Baş nazir Nikol Paşinyan bildirib ki, regionun iqtisadi və nəqliyyat infrastrukturunun blokdan çıxarılması Ermənistan iqtisadiyyatının məzmununu və strukturunu keyfiyyətcə dəyişə bilər. Baş nazir təhlükəsizlik sisteminin inkişafı baxımından təkcə ordunun modernləşdirilməsinin, onun müdafiə qabiliyyətinin artırılmasının vacibliyini deyil, həm də Ermənistanın ətrafında əlverişli xarici mühitin yaradılmasının vacibliyini qeyd edib: "Dinc inkişaf dövrünə girmək üçün gündəmi ardıcıl olaraq həyata keçirmək də vacibdir. Bu, Ermənistana və bütün regionumuza aiddir. Biz hesab edirik ki, bu, Cənubi Qafqaz regionunda mövcud düşmənçilik mühitini aradan qaldırmağın yeganə yoludur. Bunun sayəsində biz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesini bərpa edə biləcəyik. Məhz bu, bizə regional iqtisadi və nəqliyyat infrastrukturunu blokdan çıxarmağa imkan verəcək. Bu, yerli infrastrukturun inkişafı üçün əlavə təkan ola bilər, uzunmüddətli inklüziv iqtisadi artımı təmin edə bilər. İqtisadi sahədə fəaliyyət göstərmək istəyən Ermənistan vətəndaşları üçün bərabər şərait yaradar, yerli və xarici investorlar üçün iqtisadiyyatın cəlbediciliyini əhəmiyyətli dərəcədə artırar".

Keçmiş müdafiə naziri, "Ermənistan" parlament fraksiyasının rəhbəri Seyran Ohanyan isə Gümrüdə olarkən Baş nazirin dediklərinə tam əks mövqedə durub və qeyd edib ki, gələcəkdə nəqliyyat kommunikasiyalarının blokdan çıxarılması Ermənistanı daha dərin blokadaya salacaq.

"Təəssüf ki, müharibədən sonra da hakimiyyət heç bir nəticə çıxarmadı. Ardıcıl məğlubiyyətlər davam etdi, Azərbaycan Ermənistanın sərhədlərində qaldı. Üstəlik, onlar sərhədlərimizi işğal edərək, ən mühüm strateji nöqtələri, yəni yüksəklikləri, yolları, Ermənistanın sərhədyanı yaşayış məntəqələrinin həyat qabiliyyətini təmin edən infrastrukturları ələ keçirdilər", Seyran Ohanyan deyib.

Seyran Ohanyanın sözlərinə görə, bu gün bu mühüm strateji məqamlar həm də Ermənistana təzyiq üçün səbəbdir: "Əsas məqsəd Ermənistan ətrafında halqanın daha da kiçilməsidir, bu, iqtisadi təzyiqlə ifadə olunacaq. Ən ağrılısı isə Sünikdə, Geqarkunikdə demoqrafik mənzərə dəyişdiriləcək".

Seyran Ohanyan əlavə edib ki, təmsil etdiyi siyasi blokun keçirdiyi tədbirlərdə əsas məqsəd "Türklü Ermənistana yox, Türklü Artsaxa yox" şüarı altında milli müqavimətin formalaşdırılmasıdır: "Bu gün biz Ermənistanda və regionda vəziyyətlə bağlı müəyyən qeyri-müəyyənlik görürük. Artıq bu gün bəzi səlahiyyətlilər noyabrın 9-da növbəti təslim sənədinin imzalanacağı və qlobal kontekstdə bu sənədin, məncə, "regionda sülhün möhkəmləndirilməsinə" aid olacağı tezisini ortaya atıblar. "Sülh" Azərbaycanın ərazi bütövlüyünün tanınması və öz müqəddəratını təyinetmənin üstündən xətt çəkmək deməkdir".

Müxalifət isə öz mərəzinə uyğun olaraq ölkə daxilində siyasi ab-havanı bulandırmağa çalışır. Artıq küçə döyüşləri (mitinqlər, yürüşlər, yolların bağlanması) barədə anonslar verməyə başlayıblar. Hətta etiraz aksiyalarının noyabrın 9-dan təz başlamağın mümkünlüyü üzərində plan cızırlar. Bunu "Ermənistan" blokunun parlament fraksiyasının katibi Artsvik Minasyan da bu gün jurnalistlərlə görüşündə bildirib.

Onun sözlərinə görə, hadisələrin inkişafı əsasında istənilən vaxt istənilən tələblər qoyula bilər: "9-10 noyabr mitinqlərinə gəlincə, biz 20 gün əvvəldən müraciət etmişik. Bizim vəzifəmiz ondan ibarətdir ki, erməni maraqlarına zidd növbəti vəziyyətin yaranmasına yol verməmək üçün bütün mümkün üsullardan istifadə edək. Prosesin qarşısını almaq üçün bütün imkanlardan istifadə edəcəyik. Hadisədən sonra reaksiya verməməliyik. Hakimiyyət tərəfindən aparılan bütün proseslər, o cümlədən danışıqlar ictimai xarakter daşımalıdır. İcmaların və diasporun iştirakı olmalıdır. Ermənistanda mütəxəssislərin araşdırma aparılmasından sonra xəritələr və ya sənədlər əsas götürülə bilər. Paşinyan da bu barədə danışıb. Əgər belə deyibsə və davam edirsə, buna görə cavab verməlidir. Müxalifət qüvvələrinin bir-biri ilə rəqabət aparmaq vəzifəsi yoxdur, vəzifə milli təhlükələrə qarşı durmaqdır. Biz həmişə demişik ki, mübarizə bütün mümkün istiqamətlərdə aparılmalıdır".

"Mənim şərəfim var" blokunun parlament fraksiyasının katibi Hayk Mamidjanyan isə öz növbəsində müxalifətin Ermənistanın maraqlarına zidd olan proseslərə qarşı mübarizəyə yönəlmiş istənilən tədbirini dəstəkləməyə hazır olduğunu bildirib: "Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın iştirakına gəlincə, o, hansısa kapitulyantla, müstəqil Ermənistanın maraqlarını məhv edənlə bir yerdə ola bilməz".

"Mənim şərəfim var" blokundan olan digər deputat Tiqran Abramyan revanşistlərin nümayəndəsi olduğunu təsdiqləyib. Deyib ki, Ermənistanın peşəkar orduya keçid üçün kadr potensialı var, lakin hakimiyyətin real istəyi yoxdur: "Nikol Paşinyan peşəkar ordu yaratmaqdan danışır, amma bu, sadəcə kağız üzərində qalır. Ümumiyyətlə, bu, kifayət qədər çətin işdir və mən hakimiyyətin bu yolla getmək üçün real imkanlarını və istəyini görmürəm".

Paşinyanın Ermənistanın qonşu dövlətlərin ərazilərini ələ keçirmək niyyətində olmadığı barədə bəyanatına gəlincə, deputatın sözlərinə görə, bununla Ermənistanda Azərbaycanın dediyi kimi revanşist əhval-ruhiyyənin olmadığını göstərmək istəyir: "Ümumiyyətlə, Qarabağdakı erməni ordusu son 30 ildə artan döyüş hazırlığına əsaslanaraq təkcə müdafiə ssenarisini deyil, həm də hadisələrin inkişafına əsaslanan əks-hücum ssenarisini rəhbər tutmuşdu. 2018-ci ilə qədər Ermənistan silahlı qüvvələri regionda müxtəlif ssenarilərə hazır olmalı olduqlarını əsas götürürdü. İndi isə...".

Ermənistan mətbuatının toxunduğu digər mövzu isə İranla bağlıdır. Daha doğrusu diplomatik fəaliyyətini başa vuran Ermənistan səfiri barədədir. Məsələ burasındadır ki, geri çağırılan fövqəladə və səlahiyyətli səfiri Artaşes Tumanyan və xanımı fürsətdən istifadə edib Səlcuqluların baş kəndi olan İsfahana gediblər.

Yeni Culfanın "Ararat" Erməni İdman və Mədəniyyət Birliyində səfir 44 günlük müharibə qurbanlarının xatirəsinə şam yandırma mərasimində iştirak edib, bu yaxınlarda açılmış Erməni Musiqisi Muzeyini ziyarət edib.

Sonra Tumanyan İsfahan Erməni Yeparxiyasının yepiskopu Sipan Keçeçyanı ziyarət edib. Görüş zamanı İran-erməni icması və ümumermənin problemləri ilə bağlı bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Günün sonunda İsfahan Erməni Yeparxiyasının nümayəndələri ilə görüş keçirilib, bir sıra erməni musiqi əsərləri ifa olunub. Ermənistan-İran münasibətlərinin hazırkı vəziyyəti və regionda gedən proseslər ətrafında müzakirələr aparılıb.

Bir sözlə, Ermənistanda hakimiyyət qurmağa, müxalifət dağıtmağa, diaspor və diplomatlar isə təxribata meylli görünürlər. Zaman isə Ermənistanın xeyrinə işləmir...

**V.VƏLİYEV**



Elçin Bayramlı

# Özəl televiziyaların reklam təcavüzü

**Televiziya getdikcə öz mahiyyətini, mədəniyyət məbədi funksiyasını itirmək üzrədir. Buna səbəb olan əsas amillər isə tv-lərin özəl olması, yəni sırf kommersiya təşkilatı olaraq biznes marağından çıxış etməsidir. İctimai məsuliyyət və cəmiyyətin maraqları sıfıra düşüb.**

İndi tamaşaçılar televiziyalarda şou və reklam əlindən cana yığılıblar. Bu problemi çoxsaylı telekanalların olması səbəbindən azalda bilirlər. Yəni, pultu əlində hazır saxlayırsan, reklam başlayan kimi çevirirsən başqa kanala. Beləliklə, reklamlara heç kim baxmır və demək olar ki, reklam verənlərin pulu batır.

İndi tamaşaçılar arasında belə bir yarıciddi, yarızarafat fikir yayılıb ki, televiziyalar reklamların arasında hərdən veriliş də verirlər. Yeri gəlmişkən, söhbət özəl kanallardan gedir, AzTv və Mədəniyyət Tv dövlət kanalları olduğundan belə biabırçılığa qol qoymurlar.

TV-lərdə reklamın qiyməti astronomikdir. Şəxsən mən şirkətin reklam meneceri olsaydım, bu qiymətə o səviyyədə reklam verməzdim. Çünki bizim televiziyalarda verilən reklamların azı 90 faizi əslində antireklamdır. Reklamın saniyəsinə görə tələb olunan qiymət materialın keyfiyyətinə və təqdimatın effektivliyinə adekvat deyil.

Reklamda yer adları, sözlər, cümlə quruluşlarının səhv deyilməsi və küçə jarqonlarından istifadə etməklə dilin qanunlarını pozurlar. Reklamlar o qədər qeyri-peşəkar hazırlanır ki, reklam mətni, orada məhsulun hansı keyfiyyətinə görə reklam olunması, insanların onu nəyə görə seçməli olduğu aydın olmur. Sanki bu çarx tamaşaçını təqdim olunan məhsuldan ikrah etdirməyə çalışır, reklamda deyilən həddən artıq şişirdilmiş bayağı sözlərin bu məhsula heç bir aidiyyatı olmamasını göstərir.

Ən təhlükəli reklamlar gənc və yeniyetmələrə ünvanlaşmış reklam çarxlarıdır. Reklamların çoxu azyaşlı tamaşaçılar üçün dəhşətli anti-psixoterapiyadır. Psixologiyası hələ formalaşmamış uşaq və yeniyetmələrə yalnız əyləncə, laqeydlik, eqozim, narsizm təbliğ olunur.

Digər tərəfdən, reklam texnologiyaları ilə milli tamaşaçı kütləsinin psixoloji səviyyəsi indeksasiya edilmir. Əksər reklamlar açıq şəkildə tamaşaçını aldatmağa yönəlib və o qədər savadsızcasına, qeyri-səmimi hazırlanır ki, bunu ən savadsız tamaşaçı, uşaq belə hiss edir.

Bizim reklam hazırlayanlar elə bilirlər ki, reklam çarxına çox səs-küylü, haray-həşirli, gözüyoran videoeffektlər, parlaq və tezdəyişən kadrlar əlavə edildə effektli olur. Amma psixoloqlar deyir ki, bu, tam tərsinədir. Heç kim sürətli kadr dəyişmələri, yalançı səs-küyü, pafoslu və kollektiv deyilmiş ifadələri, mürəkkəb videoeffektləri qavramır və xoşlamır.

Məşhur bir müğənnini reklama çəkmək və ona süni, pafoslu sözlər dedirtmək hələ peşəkar reklam demək deyil. Əksinə, bu əks-effekt verir. Hər kəsin öz zövqü var, öz tələbatı var, kimin nəyinə lazımdır kim hansı məhsuldan istifadə edir? Məgər bu kompyuter müğənnisi o qədər savadlı dahidir ki, hər şeyi doğru seçsin?

Normal reklam çarxı sadə olmalı, şişirtmədən məlumat verməli, iddianı sübut edən videofakt göstərilməli, kadrlar 2 saniyədən tez dəyişməməli, səs rəvan, məlahətli olmalı, mətn sürətlə oxunmamalı, 1 dəqiqədən çox olmamalıdır. Tamaşaçı görməlidir ki, burada onu avam yerinə qoyub aldatmağa çalışmırlar, əksinə, məhsul haqda məlumat verirlər.

Yoxsa bunlar elə vəziyyət yaradıblar ki, artıq əksəriyyət reklam olunan malı almır, düşünürlər ki, demək bu mal yaxşı deyil, bizi aldadıb satmaq istəyirlər.

Təəssüf ki, bizim kanallarda prinsiplər belə deyil. Ona görə də onları televiziya yox, reklam kanalı adlandırmaq lazımdır. Əsl televiziyalar artıq internetdə formalaşmağa başlayıb. Onların da problemləri var, amma bu problemlərin getdikcə aradan qalxacağına ümid var. Müşahidələr göstərir ki, artıq insanların çoxu internet tv-lərinə və ya sosial şəbəkə kanallarında videolara baxır. Bu ənənəvi TV-lər üçün SOS ciddi siqnaldır. Televiziyalar isə bu həyəcan siqnalını eşitmirlər.

# Vətəni, milləti satan radikallar hansı üzlə ədalətdən dəm vururlar ?

Şərh



Deyir, satqın üçün hər şey - satılıq maldır. Xüsusilə də, 28 ildir ki, "müxalifətçiyəm",-deyib duran, satqınlıq "emblemi" olan, ölkəmizin mənafeyinə zidd olan oyunlarında yer almağı daha üstün tutan satqınlar yuvası olan AXCP-"Milli Şura" öz "mübarizəsini" yalnız qara piar kampaniyaları əsasında qururlar. Onlar istər müxalif mətbuatında, istərsə də sosial şəbəkələrdə yalan rəqəmlərlə çıxış etməklə divident qazanmağa çalışaraq çəkinmədən xalqın adından danışır, özünü şişirtməyə çalışır. Təəssüf ki, bələləri siyasi mübarizə anlayışını yalnız qeyri-sivil metodların arasında axtarır, əksər hallarda ölkənin qanunlarını pozmağı siyasi mübarizə ilə sinonimləşdirir. Hətta bir çox məqamlarda öz keçmişini, indisini, atdığı addımları, etdiyi səhvləri belə unudur, ölkənin, millətin düşmənləri ilə isti münasibətlər qurараq "dostluq sazişləri" bağlayır, ölkənin inkişafının təminatı olan, demokratik cəmiyyətin qurulması uğrunda illər uzunu planlı iş aparan, hüquqi dövlət quruculuğu sahəsində əsaslı islahatlar həyata keçirən Azərbaycan hakimiyyətinə qara yaxmaqdan əl çəkmirlər. Öz təbliğatını gördüyü və ya görəcəyi işlərlə deyil, hakimiyyətin üstünə böhtan atmaq "planı" üzərində quran Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, Gültəkin Hacıbəyli, Leyla Yunus, Sevinc Osmanqızı, Vidadi İskəndərli bu kimi ünsürlər və onların ətrafı sosial şəbəkələrdə bu Qalib dövlətin uğurlarına gölgə salarkən niyə dönüb bir anlıq geriyə çevrilib hakimiyyətdə olduqları bir il müddətində xalqa, dövlətə qarşı hansı "oyunlar" oynadıqlarını xatırlamırlar. Çünki onlar geriyə çevrilməkdən qorxurlar. Çünki geridə 1992-93-cü illərdə xalqa etdikləri zülm, yaratdıqları vətəndaş müharibəsi, xalqın əmlakını talan etmə faktları və digər günahları onların gözünə görünə bilər. 1992-1993-cü illərdə Azərbaycan prezidenti olmuş Əbülfəz Elçibəyin dediyi fikir Əli Kərimli, İsa Qəmbər...kimilərin iç üzünü aydın göstərir. Mərhum Ə.Elçibəy demişdi: "Rüşvət alanda milyonlarla dollar alırsınız, o zaman alırsan heç olmasa yüz minlərlə yox, beş manat al, insafla al. Deyirlər, 200 min dollar verməlisən, yoxsa səni gömrükdən buraxmayacam, çünki sən 400 min dollar qazanacaqsan. Gəl qazancı yarı bölək...". Və bu gün sosial şəbəkələrdə Vətənini, torpağını satılmağı və satmağı bacaran AXCP sədri Əli Kərimli, "Milli Şura" deyilən satqınlar yuvasına sədrlik edən, saçına, "başına" hörmət etməyən Cəmil Həsənli həyasızcasına AXC-Müsavatla bağlı dövlət başçısının dediyi real faktları özlərinə sərf edən formada "təhlil" edərək bugünkü uğurlara kölgə salmağa çalışırlar. Və sosial şəbəkələrdə həyasızcasına "torpaq uğrunda" çağırışını edirlər. Bax, həyasızlıq budur.

**44 günlük Qarabağ savaşı təkcə ölkənin zəif və güclü yerlərini yox, elə müxalifətin də sərhədlərini cızıb dəqiqləşdirdi, müəyyənləşdirdi**

Bu, reallıqdır. Belə ki, bu savaşda üzə çıxdı hansı partiya sədrini səmimi şəkildə ölkənin taleyi düşündürür, kimi də yalnız hakimiyyət maraqlandırır. Dərdi-azarı nəyin bahasına olursa-olsun hakimiyyətə gəlmək olanlar ilk vaxtlar ictimai qınaqdan çəkinib hakimiyyətə dəstək verdikləri görüntüsünü yaratsalar da, azacıq büdrəmə olan kimi, dərhal ardıcıl zərbələr endirməyə başladılar. Həmin qüvvələr üçün "rus sülhməramlıları" mövzusu bir dirçəliş idisə, daha sonra şəhid və qazi ailələrinin problemləri, ardınca da "Tərtər işi" hakimiyyətin uğurlarını gözdənsalma vasitəsinə çevrildi... Əlbəttə, mən demirəm ki, onlar bu problemləri qabartmamalı idilər. Və elə zənn etdilər ki, bu, "canıyananlıqdan", "vətənpərvərlikdən" daha çox xeyir götürəcəklər. Ancaq Azərbaycan xalqı 2003-cü il prezident seçkilərində etibar etdiyi liderinə səs verdi və düz 18 ildir ki xalqının etibarını qazanan, verdiyi sözünü əməli ilə nümayiş etdirən və 30 il torpaq, yurd həsrətində olanların niskinliyinə "dəmir siyasət" əməliyyatı ilə 44 gündə son qoyuldu. Böyük Həzrəti Əli isə qarışıq vaxtı məmləkətində fitnə salanları həmişə lənətləyərdi. Bu gün xalq Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, Gültəkin Hacıbəyli, Leyla Yunus, Sevinc Osmanqızı, Vidadi İskəndərli kimləri lənətləyir. Çünki 44 günlük savaş və ondan sonra yaşananlar hakimiyyətin də süzgəcindən keçdi və onlar qarşıdakı mərhələdə müxalif düşərgədən kimlərlə münasibəti necə quracaqlarını artıq tam dəqiqləşdirə bildilər. Son test isə Şuşa Bəyannaməsi ilə bağlı məlum bəyanat oldu. Və bu bəyanata imza atan bəzi müxalif partiyalarla hakimiyyət münasibətlərini bir daha AXCP-Müsavat niyyətini həyasızcasına aydın şəkildə xalqa, vətənə nə qədər düşmən mövqedədirlər. Və bu günə kimi 30 il yurd həsrətində olan xalqımıza hansı əsasla Vətən, millət, ədalətdən dəm vururlar?

**Bu münaqişə Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin acı mirasıdır...**

Ancaq bu gün bu həyasızlaşmış Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı, Gültəkin Hacıbəyli, Leyla Yunus, Sevinc Osmanqızı, Vidadi İskəndərli kimi məhfumlar 30 il ərzində xəyanətkar, cinayətkar əməllərinin üstündən özləri xətt çəksə də, xalq bu tarixin şahididir. Dövlət başçımız dəfələrlə çıxışlarında, müraciətlərində, işğaldan azad olunmuş torpaqlara tarixi səfərləri zaman bildirib ki, bu gün işğaldan azad etdiyimiz torpaqları AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduqları dövrdə satıblar. Dövlət başçımız bildirib ki, bu münaqişə Azərbaycan Xalq Cəbhəsi hakimiyyətinin acı mirasıdır: "Çünki məhz onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız işğal altına düşüb. Bunu hər kəs bilməlidir. Şuşanın işğalı böyük faciə idi. O vaxt Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi. Azərbaycan Xalq Cəbhəsi istənilən yollarla hakimiyyətə gəlmək istəyirdi. O, əvvəlki hakimiyyəti yıxmaq üçün ən çirkin, ən xəyanətkar əməllərə əl atdı, Şuşanı ermənilərə təhvil verdi. Hərbçilər yaxşı bilirlər, Şuşa alınmaz qaladır. Onu almaq mümkün deyil. Onu təhvil verdilər, satdılar ki, hakimiyyəti yıxsınlar, hakimiyyətə gəlsinlər. Əfsuslar olsun ki, belə də oldu. 1992-ci ilin mayında Şuşa və Laçın işğal edildi, Xalq Cəbhəsinin dəstələri qanunsuz yollarla hakimiyyətə gəldi. Ondan sonra nə etdilər? Ondan sonra ölkəmizi dağıtmağa başladılar".

**Radikalların ermənisayağı vandal siyasəti....**

Bu, aksiomadır. Əgər belə deyildisə, niyə İkinci Qarabağ müharibəsinin ilk başladığı gündən qələbə qazanmağımızı böyük sevinc və əhvalruhiyyə ilə qeyd edən xalqımızın keçirdiyi yürüş zamanı AXCP-"Milli Şura"-Müsavat satqınları Milli Məclisin binasına hücum edərək vandal edərək öz xislətlərini bir daha göstərdilər. Bu, təəccüb də doğurmur. Azərbaycan xalqı onları yaxşı tanıyır. Ona görə bu tarixi hər kəs bilməlidir. Dövlət başçımızın dediyi kimi: "Qorxaqlıq, satqınlıq, fərarilik. Başqa ad yoxdur. Hamı da bunu bilməlidir. O birilər nə etdilər? O vaxtkı dövlət katibi indi özünü guya müxalifət adlandırır. Amma o hansı müxalifətdir Azərbaycan xalqı yaxşı bilir. Onların tərbiyəsi, mərifəti, addımları nədən ibarətdir, indi bütün vətəndaşlar internetdə görürlər. Mən demişəm ki, Azərbaycanda nə qədər pis olsa, onlar üçün o qədər yaxşıdır". Kimlərdir bunlar? Xalq düşmənləri! Çünki bu o kəslərdir ki, Azərbaycanın uğurlarını həzm edə bilmir, probdlemlərinə sevinirlər. Çünki bu onların işinə yarayır, Azərbaycan üçün nə qədər pisdir, onlar üçün o qədər yaxşıdır. Dövlət başçımızın dediyi kimi: "Onlar fəraridirlər, satqındırlar, xaindirlər. Hər kəs bunu bilməlidir, heç kim bunu unutmamalıdır". Bəli, etdikləri cinayətləri unutmamalıdırlar, bu satqınlar. Çünki tarix unudulmur və xalq da unutmur onların əməllərini. Və bu gün sosial şəbəkə virusları cinayəti demokratiya, əxlaqsızlığı şəxsi həyat, xəyanəti fəaliyyət azadlığı kimi təqdim etməyi "siyasi mübarizə" adlandıraraq özlərini "əsl müxalifətçi" hesab edirlərsə, o zaman susmaq haraya qədər? Sözsüz ki, Vətən, millət, dövlət, xalq anlayışı belə şəxslərə yaddır. Bütün bunlardan sonra istər Əli Kərimli, İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Leyla Yunus və bu kimi satqınların Azərbaycan xalqı adından danışmağa, ümumiyyətlə, bu ölkədə yaşamağa hüququ varmı...?! Artıq bu sualın da cavabını hüquq-mühafizə orqanları versələr daha yaxşı olardı. Çünki bu məsələ get-gedə daha çox qabarmaqdadır... Vətənə və dövlətə qarşı xəyanət yolu tutan bu satqın və naqis xəyanətkarlar öz layiqli cəzalarını almalıdırlar.

*Rəfiqə HÜSEYNOVA*

# İrimiqyaslı layihələr işğaldan azad olunan ərazilərə yeni həyat verir

Rəy

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsi nəticəsində 30 ilə yaxın müddətdə erməni işğalı altında olan torpaqlarımız azad olundu və tarixi ədalət bərpa edilərək, şanlı Zəfər tariximiz yazıldı. Cənab Prezidentin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olmasının ən başlıca səbəbidir. Azərbaycan Vətən müharibəsində uğurlu döyüş əməliyyatı apararaq, dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib dövlət oldu və bu gün dünyanın bir çox aparıcı dövlətləri Azərbaycanın hərb modelini öyrənir". Bu sözləri "Səs" qəzetinə açıqlamasında Yeni Azərbaycan Partiyası Ağcabədi rayon təşkilatının aparat rəhbəri Nazim Bünyatov bildirib.



O, qeyd edib ki, 44 günlük Vətən müharibəsində dünya bir daha erməni terrorunu, barbarlığını, vəhşiliyini gördü: "Mülki, dinc insanların hədəfə alınması, yaşayış yerlərinin dağıdılması erməni vəhşiliyini bir daha dünyaya nümayiş etdirdi. 30 ilə yaxın işğalda qalaraq dağıdılan, talan edilən ərazilərimizdə bu gün Cənab Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində həyat yenidən dirçəlir. Cənab Prezidentin bildirdiyi kimi, yeganə rəqibimiz zamandır. Bildiyimiz kimi, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi üçün irimiqyaslı layihələr reallaşdırılır. Azərbaycan Prezidenti İlham Əliyev davamlı olaraq işğaldan azad edilmiş ərazilərə səfər edərək, erməni faşistlərinin törətdiyi vəhşiliklərlə tanış olur, tapşırıq və göstərişlərini verir. Oktyabrın 20-si Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva Zəngilan rayonuna səfər edərək, bu ərazidə aparılan quruculuq-abadlıq, yenidənqurma işləri ilə tanış olub, görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verib. Rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı Cənab Prezident bildirib ki, "Zəngilan ölkə üzrə çox müasir və böyük əhəmiyyətə malik olan bölgəyə çevriləcəkdir". Bu gün digər ərazilərdə olduğu kimi, Zəngilan da böyük quruculuq məkanına çevrilib. Müasir texnologiyalara əsaslanan quruculuq konsepsiyası əsasında aparılan bərpa işləri keçmiş məcburi köçkünlərin həyat şəraitinin hərtərəfli təminatına yönəlib. Cənab Prezident "İndi Zəngilanın yeni dövrü başlayır və şəhərin baş planı artıq hazırlanır", - deyərək, yaxın aylarda buranın baş planının təqdim ediləcəyini ictimaiyyət nümayəndələrinin diqqətinə çatdırıb".

N.Bünyatov Zəngilanda "Ağıllı kənd" pilot layihəsinin həyata keçirildiyinə nəzər salaraq, bu layihə əsasında geniş ərazidə tikinti işlərinin aparıldığına diqqət çəkib. Qeyd edib ki, "Ağıllı kənd" layihəsinin birinci mərhələsində Qarabağda təhlükəsiz yaşayış mühiti yaradılır: "Fərdi yaşayış evinin, məktəbin, uşaq bağçasının tikintisi sürətlə davam etdirilir. "Bu gün Mən buraya gəlməzdən əvvəl işin gedişatı ilə tanış oldum. Artıq bəzi binalar hazırdır və çalışacağıq ki, gələn ilin əvvəli, bəlkə də bu ilin sonu zəngilanlıları Zəngilana köçürməyə başlayaq", - deyə dövlət başçısının bildirməsi görülən işlərin sürətlə aparılmasının təzahürüdür. Bu ərazidə Cənab Prezidentin bildirdiyi kimi, artıq turizm, kənd təsərrüfatı, nəqliyyat, logistika, ətraf mühitin qorunması və əlbəttə ki, insanlar üçün şəraitin yaradılması istiqamətində işlər görülür. İşğaldan azad olunan ərazilərdə qısa bir zaman məsafəsində kompleks işlərin görülməsi Azərbaycanın iqtisada gücünün, dinamik inkişafının göstəricisidir".

N.Bünyatov qeyd edib ki, Cənab Prezidentin Zəngilanın ölkə üzrə çox müasir və böyük əhəmiyyətə malik olan bölgəyə çevriləcəyini bildirməsi reallıqlara söykənir: "Dövlət başçısının Zəngilana səfəri çərçivəsində "Zəngilan" yarımstansiyasının açılışı görülən işlərin davamıdır. "Ağıllı kənd" layihəsi çərçivəsində görülən işlər, eyni zamanda Dövlət Sərhəd Xidmətinin Zəngilan rayonundakı hərbi hissə kompleksində şəxsi heyət üçün yaradılan zəruri şərait bu ərazinin tezliklə dirçəldilməsinin təzahürüdür. Dövlət başçısının işğaldan azad olunan ərazilərə hər səfəri zamanı yeni layihələrin təməli qoyulur. Bu gün Füzuli, Şuşa, Zəngilan kimi işğaldan azad olunan ərazilərdə aparılan abadlıq-quruculuq işləri uğurla davam etdirilir. Beynəlxalq hava limanlarının tikintisi, yeni yolların çəkilməsi, Tərtərdə "Suqovuşan-1" və "Suqovuşan-2" Kiçik Su Elektrik stansiyalarının yenidənqurmadan sonra istifadəyə verilməsi və s. bu ərazilərin müasir şəhərə çevriləcəyindən xəbər verir. Eləcə də, tarixi memarlıq abidələrimizin bərpa və təmir olunması işləri davam etdirilir. Əlbəttə ki, həyata keçirilən genişmiqyaslı layihələr deməyə əsas verir ki, işğaldan azad olunan bütün ərazilərimizdə infrastruktur yenidən qurulacaq, bərpa və təmir olunacaq, müasir mərkəzə çevriləcəkdir".

*Zümrüd BAYRAMOVA*

# "ABŞ-ın müsəlman ölkələrinə münasibəti təkəbbür, qorxutma və təzyiqdən ibarətdir"

## General-leytenant Naim Lodhi: "Müsəlman ölkələrinə Amerikanın ancaq düşmən davranışını görəcəksiniz. Görün ABŞ NATO-dakı müttəfiqi Türkiyə ilə necə rəftar edir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*





Pakistanın keçmiş müdafiə naziri general-leytenant Naim Lodhi "Caliber" analitik mərkəzinə müsahibəsində dünyada və regionumuzda gedən geosiyasi proseslərlə bağlı fikirlərini bildirib. Müsahibənin tərcüməsini oxucularımızın diqqətinə çatdırırıq.

***- Bəzi rusiyalı ekspertlər iddia edirlər ki, Taliban hərəkatının Kabildə hakimiyyətə gəlməsi Pakistan və ABŞ-ın kəşfiyyat idarələrinin xüsusi əməliyyatının nəticəsidir, bu, bilərəkdən danışıqlar yolu ilə həyata keçirilən xüsusi əməliyyatdır. Onların fikrini bölüşürsünüz?***

- Pakistan Talibanla açıq əlaqə saxladı, lakin bütün dünyanın diqqəti Taliban üzərində cəmləndiyi üçün hərəkata heç vaxt dəstək vermədi. Düşünmürəm ki, Rusiya hökuməti və ya başqa bir məmur belə ağlasığmaz sözlər desin. Bunlar bəzi yanlış yanaşan psevdoanalitiklərdir. Amerikalılar və Taliban bir-birinin qanını axıdır və heç vaxt barışmayacaqlar.

***- ABŞ prezidenti Co Baydenin administrasiyası Əfqanıstanda hərbi və kəşfiyyat əməliyyatları üçün ölkənin hava məkanından istifadəyə dair Pakistanla danışıqlar aparmağı gözləyir. Pakistan ABŞ-la bu əməkdaşlıq imkanını necə qiymətləndirir? İslamabad hansı şərtlərlə öz hava məkanını amerikalılara verməyə hazırdır?***

- Pakistanın Əfqanıstana və ya Əfqanıstan ərazisinə qarşı hər hansı hərbi səylərə və ya əməliyyatlara dəstək verməsi ehtimalı azdır. Bu bəyanatın Pakistana təzyiqi artırması və İslamabadın Əfqanıstan və Çinlə fikir ayrılığı yaratması nəzərdə tutulurdu. Və ya sadəcə reaksiyanı yoxlamaq üçün edildi. Amma bizim Xarici İşlər Nazirliyi artıq buna cavab verib.

***- Rusiya və Orta Asiya ölkələri ciddi şəkildə narahatdırlar ki, Taliban hakimiyyətə gələn kimi öz ideologiyasını yaymağa başlayacaq və onların regiona nüfuz etmə ehtimalı artacaq. Mərkəzi Asiya bölgəsi ilə bağlı Talibandan nə gözləmək olar?***

- Mən Əfqanıstanın Müvəqqəti Hökumətindən Mərkəzi Asiya ölkələrinə hər hansı təhlükə barədə məlumatlı deyiləm. Əfqanıstanın yeni rejimi öz ərazilərinin başqa ölkəyə qarşı hər hansı ekstremist və ya terror aktları üçün istifadə edilməsinə icazə verməyəcəyinə söz verib. Biz Kabilə etibar etməliyik. Onlara öz sözlərini sübut etmək şansı verək. Hər halda, onlar Doha müqaviləsinin müddəalarını yerinə yetirməkdə amerikalılardan daha etibarlı olduqlarını göstərdilər.

***- Son 10-15 ildə ABŞ-ın müsəlman ölkələrinə münasibəti necə dəyişib? Amerikanın müsəlman ölkələri ilə bağlı siyasətində hansı yeni tendensiyalar müşahidə olunur?***

- ABŞ-ın bütün müsəlman ölkələrinə münasibətini belə xarakterizə etmək olar: təkəbbür, qorxutma, təzyiq və hökmranlıq. Görün Amerika NATO müttəfiqi Türkiyə ilə necə rəftar edir.

Əlcəzairdən, Suriyadan, Misirdən, Liviyadan, İraqdan, Yəməndən, Əfqanıstandan, Pakistandan, İrandan və sairdən başlayaraq, Amerikanın ancaq düşmən davranışını görəcəksiniz. Müsəlman ölkələri yalnız ABŞ-ın maraqlarına tamamilə tabe olduqda onun qəzəbindən qaça bilərlər.

***- Şimal-Şərq Pəncab əyalətinin Lahor şəhərində qadağan olunmuş radikal İslam təşkilatı Tehreek-e-Labbike Pakistan (TLP) tərəfdarları ilə toqquşma zamanı 3 polis əməkdaşı həlak olub, bir neçəsi yaralanıb. Toqquşmaların səbəbləri nələrdir? Bu təşkilatın arxasında kim dayanır?***

- Təəssüf ki, Pakistan bir çox təhlükəli təşkilatların ölkədə çiçəklənməsinə icazə verdi. TLP onlardan biridir. Magistral yolları bağlamaqla əhaliyə böyük diskomfort yaradırlar. Təbii ki, düşmənlər belə hallardan istifadə edirlər.

***- Müharibədən sonrakı dövrdə Pakistan-Azərbaycan münasibətlərinin inkişafını necə görürsünüz?***

- Pakistanla Azərbaycan arasında münasibətlər idealdır. Hər iki qardaş ölkə siyasi məsələlərdə, məsələn, Qarabağ və Kəşmirdə bir-birini dəstəkləyir. Biz artıq bir-birimizlə siyasi və hərbi əməkdaşlıq qurmuşuq. Cəmiyyətlər arasında iqtisadi əlaqələri, təmasları gücləndirmək lazımdır. Media, təhsil, elm, hərbi təlim sahələrində əməkdaşlığa ehtiyac var. Hər iki mərd xalqın gələcəyi mənə parlaq görünür.

***Tərcümə - Elçin Bayramlı***







# "Ermənistanı su basacaq?.."



...İndi də əla bir variant tapıblar, o vaxt Çar Rusiyasında olduğu kimi, "xalq arasına getmə", yeni Ermənistan əyalətlərinə gedib yerli erməniləri Nikola qarşı "ayağa qaldırmaq".

Deməli, ötən gün elə bu niyyətlə də Gümrüyə gedən "Hayastan" parlament fraksiyasının rəhbəri Seyran Ohanyan xeyli yerli ermənini şəhər klubuna yığıb onlar üçün "təsirli" bir nitq söyləyib. O öz nitqində ermənilərə gələcəkdə nəqliyyat kommunikasiyalarının blokdan çıxarılmasının daha dərin blokadaya gətirib çıxaracağını bir-bir başa salıb.

Ohanyan ilk olaraq, müharibədən məğlub çıxan hakimiyyətin heç bir nəticə çıxarmadığını da təəssüf hissi ilə ifadə edib. Daha sonra o ermənilərə deyib ki, siz burada möhkəm dayanmasınız, məğlubiyyətlərimiz bundan sonra da davam edəcək. Onun sözlərinə görə, bu gün Azərbaycan Ordusu Ermənistanın sərhədlərində dayanıb. Onlar üstəlik bizim yüksəkliklərdə olan ən mühüm strateji nöqtələri də "əlimizdən alıblar". Bu ərazilərdə yaşayan yerli ermənilər elə qorxublar ki, bu dəqiqə çamadanlarını yükləyib aradan çıxmaq üçün məqam gözləyirlər.

Ohanyana görə, Azərbaycanın bütün bu addımları Ermənistanın spekulyasiya və təzyiqinə hesablanıb.

Sabiq müdafiə naziri yerli erməniləri başa salıb ki, Azərbaycanın bütün "bu oyunları", Ermənistanla "artsax" ətrafında halqanın daha da kiçilməsinə yönəlib. Ona görə də, ayıq-sayıq olmaq lazımdır, çünki gələcəkdə "qondarma nəqliyyat kommunikasiyalarının" blokadadan çıxarılması Ermənistanın daha dərin blokadasına gətirib çıxaracaq.

Deyim ki, Ohanyan gümrülü ermənilərə onların bu vaxta qədər bilmədikləri bir sirri də açıb. O deyib ki, əgər Paşinyan səlahiyyətliləri xalqa yalan vədlər verib, onların qulaqlarını gələcəkdəki iqtisadi inkişafla doldurub, onları azərbaycanlılarla əlaqələr qurmağa çağırsalar, gümrülülər buna getməsinlər. Çünki bu halda Ermənistanı su basacaq və İrəvanın "artsax"la bağlı bütün perspektivləri məhv olub gedəcək.

...Burada Sizi deyə bilmirəm, amma mən Ohanyanın "ermənilərin suda boğulacaqları" ilə bağlı dediklərinə inanmaq istəyirəm. Çünki hər şey ola bilər. Yadınızda olar, o vaxt Vanqa "Kursk"un su altında qalacağını deyəndə çoxları gülüb demişdi ki, Rusiyanın bu əyalət şəhəri həmişə su qıtlığından əziyyət çəkir. İndi necə ola bilər ki, su altında qalsın...amma özünüz də gördünüz ki, Kursk şəhəri yox,"Kursk" sualtı qayığı su altında qaldı və heç çıxarda da bilmədilər.

Ona görə də, indi Ohanyanın dediklərinə "şəkk gətirmək bizim üçün "günah" olar".

Amma, deyəsən, bizdən fərqli olaraq, Ohanyanın dediklərinə "şəkk edən" ermələr az da olsa, varmış. Məsələn onlar dəfələrlə kinik yalana qapılan bu hakimiyyətə artıq inanmaıqlarını bildirsələr də, amma dünən xalq tərəfindən devrilmiş cinayətkarların indiki hakimiyyətə alternativ olmasını da istəmirlər. Çünki bu Ermənistan və erməni xalqının gələcəyi üçün təhlükədir.

...Görən, Seyran Ohanyan bunu qanırmı?

***Ağasəf Babayev***

SON SƏHİFƏ
Səs
26 oktyabr
2021-ci il



# Ronaldodan sərt açıqlama: Artıq vaxt gəldi!

"Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo Premyer Liqanın 9-cu turunda "Liverpul"a uduzduqları matçı şərh edib. Qol.az xəbər verir ki, 36 yaşlı hücumçu öz İnstaqram hesabında etdiyi paylaşımda yazıb: "Bəzən mübarizə aparırıq, amma istədiyimiz nəticəni qazana bilmirik. Bəzən uduzuruq. Bunun məsuliyyətini biz daşıyırıq. Azarkeşlərimizin dəstəyinə heyran qaldıq. Onlar hər şeyin ən yaxşısına layiqdirlər. Biz yaxşı nəticələr qazanmalıyıq. Artıq vaxt gəldi!"

Qeyd edək ki, dünən "Mançester Yunayted" öz meydanında "Liverpul"a ağır hesabla uduzub - 0:5.



# Məşhur "Briliant əl" filminin aktrisası yoxa çıxıb...

**Keçmiş SSRİ-nin tanınmış aktrisası, Rusiyanın Əməkdar artisti Svetlana Svetliçnaya paytaxt Moskvada itkin düşüb. SİA xəbər verir ki, məlumatı TASS yerli hüquq-mühafizə orqanlarına istinadən yayıb. Oktyabrın 21-dən onunla əlaqə saxlamaq mümkün olmayıb. Aktrisanın yerinin müəyyənləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilir.**

Qeyd edək ki, S.Svetliçnaya 1940-cı ildə anadan olub. O, çoxsaylı filmlərdə rol alıb. Aktrisanın oynadığı ən məşhur filmlərdən biri də "Briliant əl" kino-komediyasıdır. S.Svetliçnaya bu filmdə Anna Segeyevna rolunu canlandırıb.



# Həftəsonu yol qəzalarında 8 nəfər ölüb

Həftəsonu Azərbaycanda baş verən yol qəzalarının sayı açıqlanıb. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən SİA-ya bildirilib ki, oktyabrın 23-24-də avtomobil yollarında 8 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 8 nəfər ölüb.

# 100 yaşlı ağbirçək!



Qubanın Şuduq kəndində yaşayan Fatma Əhmədova artıq 100 yaşına qədəm qoyur. Cəmi iki ay sonra ömrünün 100-cü zirvəsinə çatacaq bu el ağbirçəyi, 1922-ci ilin yanvar ayının 3-də Qubanın Mövdün kəndində dünyaya gəlib. 100 yaşının zirvəsinə çatan Fatma nənənin sinəsi sözlə, qədim folklor nümunələrindən ibarət ibrətamiz misralarla doludur. Yaddaşı indi də möhkəm olan bu el ağbirçəyi, tarixə çevrilən şeir misralarını indi də gəncliyindəki kimi əzbər bilir, daima gənclərə ibrətli, həyata düzgün baxış yaradan folklor nümunələri təqdim edir.

Fatma nənənin ömür gün yoldaşı Mürsəl Əhmədov keçən əsrdə baş verən ikinci dünya müharibəsində iştirak edib, Azərbaycanın igid oğulları ilə çiyin-çiyinə Hitler faşizminə qarşı vuruşub, müharibədən geri qayıtdıqdan sonra isə, dinc quruculuq işlərində fəal iştirak edib. Müharibə zamanı və müharibədən sonra ən ağır əmək cəbhələrində çalışan bu nurani qadın, 9 övladı böyüdərək bu günlərə çatdırıb. Daima təbii məhsullara və sağlam qidalanmalara üstünlük verən Fatma nənə, bu gün də sağlam və gümrah qalmasında bu amilin böyük rol oynadığını deyir. Fatma nənə 9 övlad, 38 nəvə və 54 nəticə sahibidir.

# İsveçli reper silahlı hücumun qurbanı olub

İsveçdə musiqi dünyasını sarsıdan ölüm hadisəsi baş verib. SİA xarici mətbuata istinadən xəbər verir ki, İsveçin ən məşhur reperlərindən olan 19 yaşlı Eynar paytaxt Stokholmda silahlı hücum nəticəsində öldü. Şəhərin cənubunda, Hammarby Sjöstaddakı Eynarın evinin qarşısında baş verən hadisədən sonra polis cinayət araşdırması başladıb.

Stokholm polisinin sözçüsü Ola Osterlinq ən azı iki şübhəlinin şəxsiyyətini müəyyənləşdirdiklərini ifadə edərək, "Hazırda hücumun səbəbini və arxasında kimin olduğunu müəyyən etməyə çalışırıq" deyib. İsveçin SVT kanalı anonim mənbələrə əsaslanaraq xəbərlərində Eynarın ölümündə dəstə əlaqəsinin olduğunu iddia edib. Keçən il Varby dəstəsi tərəfindən qaçırılan və fidyə tələb olunan



Eynar, önümüzdəki günlərdə dəstə ilə bağlı bir məhkəmədə ifadə verəcək idi. Tam adı Nils Kurt Erik Eynar Gronberg olan reper 2019-cu ildə "Spotify"-da İsveçin ən çox dinlənən sənətçisi olub, "Grammis" Mükafatını və müxtəlif mükafatları qazanıb.

*Aytac Əliyeva*

# XƏBƏRDARLIQ:

# Bu gün güclü külək əsəcək!

Oktyabrın 26-da gözlənilən hava şəraiti açıqlanıb. Milli Hidrometeorologiya Xidmətindən SİA-ya verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında arabir yağış yağacağı gözlənilir. Bəzi yerlərdə intensivləşəcəyi ehtimalı var. Güclü şimal-qərb küləyi axşam mülayimləşəcək.



Havanın temperaturu gecə 7-9° isti, gündüz 10-12° isti olacaq. Bakıda gecə 7-9° isti, gündüz 10-12° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 774 mm civə sutununa yüksələcək. Nisbi rütubət 80-90 % olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 4-9° isti, gündüz 12-16° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-6° isti olacaq.

## Başsağlığı

Sabir Xammədov və ailəsi

**Xammədov Əlitahirin**

vəfatından kədərləndiklərini bildirir mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

***Allah rəhmət eləsin!***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**